# 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 13 (8606) ÇƏRŞƏNBƏ, 20 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Tariximizin qürur və şərəf səhifəsi

**31 il əvvəl - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verənlər tək faciə yox, həm də xalqımızın tarixinin şərəfli səhifələrindən biri, ictimai-siyasi təfəkkürümüzdə yaranmış təbəddülatlar günü, milli azadlıq hərəkatımızın yüksəliş zirvəsi idi. Biz 20 Yanvar hadisələri ilə özümüzü millət olaraq tanıdıq, dərk etdik. Həmin gün Bakı qırmızı rəngə boyandı, açılan 20 yanvar səhəri şəhid oğul və qızlarımızın qanından rəng aldı, xalqımızın azadlıq harayı sovet tanklarının tırtılları altında boğuldu.**

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu cinayətkar hərəkəti nəticəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklərə yol verildi, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. Öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, məğrurluğunu nümayiş etdirdi.

Bu hadisə nəinki Azərbaycanı, bütün dünyanı lərzəyə gətirsə də, o zaman yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçməyə üstünlük verdi, xalqın milli faciəsinə laqeyd münasibətlərini ortaya qoyaraq Kremlin qəzəbinə tuş gəlmək istəmirdilər. O ağır və faciəli günlərdə Azərbaycan xalqına qarşı soyqırımı aktının həyata keçirildiyini ilk olaraq cəsarətlə bütün dünyaya bəyan edən Ümummilli Lider Heydər Əliyev oldu. Heydər Əliyev vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən doğan cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın siyasi iradəsini ifadə etdi. Baş verən hadisələri hüquqa, demokratiya prinsiplərinə zidd hesab edən Heydər Əliyev yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb etdi.

1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, faktiki olaraq heç bir tədbir görülmədi. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoydu və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirmədi. Ali Sovetin yanvar hadisələrini tədqiq etmək üçün yaratdığı komissiyanın da işi başa çatdırılmamış qaldı.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Heydər Əliyev hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə heç nədən çəkinmədən millətinin hüquqlarını müdafiə etməkdən qorxmadığını sübut etdi. Sənəddə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi respublika rəhbərliyindən tələb edildi.

*Ardı 4-cü səh.*

# Azərbaycan torpaqlarının azad edilməsi bütün türk dünyasının böyük zəfəridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Baş katib.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda salamlayıram, gəlişinizə şadam. Mən bilirəm ki, siz Ağdamda və Füzulidə olmusunuz, işğalçı qüvvələrin bizim şəhərləri viran qoyduğunu özünüz görmüsünüz. Vaxtilə Qarabağın çiçəklənən, on minlərlə insanın yaşadığı Ağdam və Füzuli şəhərləri tamamilə dağıdılıb. Füzulidə bircə salamat bina yoxdur. Ağdamda da bütün binalar sökülüb, yalnız qismən dağıdılmış məscid qalıb. O da, mənim dediyim kimi, sonradan məlum olub ki, yalnız Azərbaycan Ordusunun bu istiqamətdə hücum edəcəyi halda baş verə biləcək artilleriya zərbələrinin oriyentiri kimi ərazidə səmtləşdirmək üçün qalıb. Təsadüfi deyil ki, xarici jurnalistlər Ağdamı "Qafqazın Xirosiması" adlandırıblar. Fikrimcə, eyni sözləri Füzuli şəhəri, həmçinin işğal altında olmuş başqa şəhərlər haqqında da demək olar. Zəngilan da, Cəbrayıl da, Qubadlı da praktiki olaraq tamamilə dağıdılıb. Təkcə şəhərlər yox, kəndlər də. Siz Füzuliyə, Ağdama gedəndə yolboyunca yəqin ki, tamamilə dağıdılmış kəndləri görmüsünüz. Bütün bu dağıntılar Birinci Qarabağ müharibəsi başa çatandan sonra törədilib, məhz bu ərazilərdə Azərbaycanın mədəni irsinin izlərini məhv etmək üçün. Həm də ondan ötrü ki, azərbaycanlıların bu ərazilərə qayıtmalarına heç vaxt imkan verməmək üçün, eləcə də sırf oğurluq, qarət üçün.

*Ardı 2-ci səh.*

◆ İlin uğurlu yekunları

# 11 qələbə müjdəsi

Yola saldığımız 2020-ci il Azərbaycanın ulu tarixinə şanlı Zəfər ili kimi düşdü. Bir qərinə davam edən Qarabağ münaqişəsi cəmi 44 gün ərzində ölkəmizin qələbəsi ilə başa çatdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu düşmən tapdağında qalan doğma torpaqlarımızı işğaldan azad etdi, Ermənistanı təslimçilik bəyanatına imza atmağa məcbur qoydu.

## Xalqa ilk müraciət

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması səbri daşıran son damla olaraq gözlənilən müharibəni qaçılmaz etdi. Həmin andan etibarən Azərbaycan Silahlı Qüvvələri vətən uğrunda ölüm-dirim savaşına qalxdı. Ordumuz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün müqəddəs döyüşə atıldı. Vətən müharibəsi başlayandan bir neçə saat sonra Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edərək cəbhədə yaranmış vəziyyətlə bağlı birbaşa məlumat verdi. Xalq bu müraciətdə Ermənistanın növbəti dəfə Azərbaycana hərbi təcavüz aktına əl atdığı faktını rəsmən eşitdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Cəmiyyətimiz dövlət başçısının dilindən eşitdi ki, bu təxribat Ermənistan tərəfindən başlanıb, düşmən danışıqlar prosesini pozmaq, ərazilərin işğalda qalmasını qeyri-müəyyən müddətədək uzatmaq məqsədilə bu təxribata əl atıb.

*Ardı 9-cu səh.*

# Qanlı şənbədən azadlığa uzanan yol

1990-cı il, yanvarın 19-dan 20-nə keçən şənbə gecəsiydi... Bakının gözlərindən al qan axırdı... O dəhşətli şənbə simsiyah gecənin zülmətiylə pərdələnmək istəsə də, topa-topa buludların arasından ay şahidlik edirdi yerdəki haqsızlığa, zülmə, günahsız, əliyalın insanlara tutulan divana... Bir də zülmə dirənc göstərən ərlərə, ərənlərə... Cismlərini fəda edərək ruhları ilə azadlıq dastanı yazanlara, əbədiyyətə qovuşanlara... Zərrələrə çevrilərək qətrə-qətrə xatirələrə, yaddaşlara, qəlblərə hopanlara...

O gün Azərbaycan xalqı yeni qəhrəmanlarına qucaq açırdı...

O gün Vətənə bağlılığın dastanı yazılırdı tarixə, azadlıq zirvəsi fəth edilirdi gözlərimiz önündə...

Tariximizə həm faciə, həm də qəhrəmanlıq salnaməsi kimi həkk olunan 1990-cı ilin Qanlı 20 Yanvarından bir qərinəlik zaman keçsə də, xalqımızın ürəyində ağrısı da, acısı da, yaşatdığı qürur, fəxarət hissi də elə ilk gündəki kimi yenidir.

*Ardı 4-cü səh.*

# Natəvan, Üzeyir bəy, Bülbül öz evlərinə qayıtdılar

Əziz Şuşa, biz qayıtmışıq!

Heç bilirsən səndən ayrı qalmaq necə çətin, necə ağrılı idi...

Görürsənmi bizə neçə yerdən yara vurublar?

Amma sənin yoxluğunun ürəyimizdə açdığı yaralar bunlardan daha dərin, daha dözülməz idi. Hər açılan sabahımıza, hər zülmətə bürünən gecəmizə sənsizliyin kədəri çökmüşdü...

Dumandan başı çalmalı dağların, qartallar oylağı sıldırımların, köhlən atlara dırnaq saldıran Cıdır düzün, zümzüməli İsa Bulağın, zümrüd donlu Topxanan xəyallarımızdan getmirdi. Xarı bülbülünün buram-buram Vətən qoxuyan ətrini rüzgarlardan almağa çalışırdıq...

Beləcə, neçə baharı, neçə zimistanı qulağımız səsdə, gözümüz yolda, qəlbimiz səksəkədə keçirdik. Gözlərimizdən, ürəyimizdən, namərd gülləsindən deşik-deşik olmuş sinəmizdən qara qanlar axdı. Didərgin ruhlarımız sənsiz rahatlıq tapa bilmədi...

Bu bir qərinəlik zaman dilimində həsrətini çox çəkdik, amma ümidimizi itirmədik, sənə qovuşacağımız günü gözləyirdik. Budur, o müqəddəs an yetişib və bütün bu ağrı-acılar, nisgil, həsrət sona yetib, biz doğma qoynuna, isti qucağına qovuşmuşuq!

Əziz Şuşa, daha biz illər əvvəl güllələnib, qoynundan didərgin salınmış sakinlərin deyilik...

Böyük qayıdışın ilk sakinləri, doğma övladların Üzeyir, Natəvan və Bülbülük...

## Erməni vandalları cansız heykəlləri də güllәbaran etmişdilər

Bakıda İncəsənət Muzeyinin həyətində qoyulmuş üç dahi şəxsiyyətin, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün güllələnmiş büstlərini hər birimiz görmüş, acı hisslərlə seyr etmişdik. Tarixə adlarını insanlıq və mədəniyyət düşməni kimi həkk edən erməni vandalları xislətlərinə xas davranaraq Şuşanı işğal etdikdən sonra bütün tarixi, mədəni, dini abidələrimizə qarşı olduğu kimi, bu üç büstə qarşı da vəhşilik nümayiş etdirmiş, sanki cansız heykəllərdən də qisas almağa çalışaraq onları güllələmişdilər.

*Ardı 8-ci səh.*

◆ Qarabağ dirçəliş yolundadır

# Ermənistanın dağıtdığı evləri Azərbaycan yenidən tikir

İkinci Dünya müharibəsi zamanı Hitler faşizmi olmazın vəhşiliklər törətdi. Bunlardan biri də hitlerçilərin 1943-cü ildə Belarus torpağında Xatın kəndini Yer üzündən silməsi idi. Faşistlər bu kəndin bütün sakinlərini bir-bir güllələdilər, yaxud diri-diri yandırdılar... İndi Xatının təkcə adı qalıb, orada yalnız memorial kompleks ucaldılıb ki, insanlar faşizmin nə demək olduğunu unutmasınlar, bir daha dünyada bu cür hadisələrin təkrarına yol verməsinlər.

Erməni faşistləri isə öz sələfləri olan hitlerçilərdən "mükəmməl dərs" alaraq onlardan da "qabağa" getdilər. Həmin hadisədən təxminən yarım əsr sonra kəndləri, şəhərləri oda qaladılar, mislibərabəri olmayan Xocalı soyqırımını törətdilər, neçə-neçə kəndi, şəhəri viranə qoydular. Onlar bu vəhşilikləri Azərbaycan torpağında etdilər, qonşuluğa, bizdən gördükləri yaxşılıqlara, kəsdikləri çörəyə xain çıxdılar, qatı düşmən olduqlarını göstərdilər.

2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bunları bir daha vurğulamışdır: "İşğal edilmiş bütün torpaqlarda vandalizm aktları törədildi, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz dağıdıldı və ya təhqir edildi, bütün yaşayış binalarımız dağıdıldı, Ağdam, Füzuli şəhərləri yoxdur, kəndlər yoxdur, Cəbrayıl, Qubadlı, Zəngilan şəhərlərində tək-tük bina qalıb, orada da Ermənistan hərbçiləri yerləşmişdilər. Kəlbəcər və Laçın rayonlarında daha çox qanunsuz məskunlaşma aparılmışdır.

*Ardı 9-cu səh.*

# Azərbaycan torpaqlarının azad edilməsi bütün türk dünyasının böyük zəfəridir



Əvvəli 1-ci səh.

Vandallar və oğrular pəncərə çərçivələrini, qapıları, dam örtüklərini, aparılması mümkün olan nə varsa, hamısını söküb aparıblar. Hər şeyin dağıdılmadığı ərazilərdə süni məskunlaşdırma siyasəti aparılırdı, bu, Cenevrə konvensiyalarının ən kobud şəkildə pozulmasıdır və hərbi cinayətdir. Özü də işğalın ilk illərində Ermənistanın əvvəlki hakimiyyəti bu faktları gizlədirdisə, indiki hakimiyyət bununla fəxr edir, internetdə və özünün kütləvi informasiya vasitələrində Yaxın Şərqin digər dövlətlərinin erməni millətindən olan vətəndaşlarının buraya gəlməsi, Şuşada və digər şəhərlərdə məskunlaşması barədə videoçarxları nümayişkaranə şəkildə dərc edir, bununla da həm beynəlxalq hüquq normalarına, həm də insani əxlaq normalarına tam etinasızlıq göstərirdi.

Bir də hansı əxlaqdan danışmaq olar ki, indi bütün dünya işğalçıların törətdiyi dağıntıları görür. Bəşər tarixində dünyada müharibələr və dağıntılar çox olub, lakin mənim fikrimcə, XX əsrdə belə barbarlıq, vandalizm və dağıntılar, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünməyib.

İşğaldan azad edilmiş digər ərazilərə gəldikdə isə, məsələn, Kəlbəcər, Laçın rayonlarında həm Ermənistan vətəndaşlarının, həm də əsasən diaspordan olan ermənilərin süni şəkildə məskunlaşdırılması aparılıb. Lakin noyabrın 10-da imzalanmış Bəyanata müvafiq olaraq, işğalçılar həmin əraziləri tərk edəndə, onlara təxminən 20 gün vaxt verilmişdi, bu müddətdə onlar özlərinin tikmədiyi, qanunsuz olaraq soxulduqları evləri yandırır, meşələri qırır, bütün infrastrukturu məhv edirdilər. Laçın və Kəlbəcər rayonlarında 10-dan çox su elektrik stansiyası vardı, onlar hamısı dağıdılıb, yəni bu, barbarlıqdır. Bütün dünyanın gözü qarşısında buna sadəcə başqa ad vermək mümkün deyil. Azərbaycan işğal olunmuş ərazilərə qayıdandan sonra beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, jurnalistlər oraya səfər edir, hər şeyi öz gözləri ilə görürlər. Bu, misli görünməmiş vandallıqdır. Elə bil bu ərazilərdən vəhşi qəbilə keçib.

Şuşa şəhərinə gəldikdə isə onun indiki vəziyyətinə heç kim laqeyd qala bilməz, çünki bu nadir və bənzərsiz şəhər Qafqazın incisidir. Fikrimcə, nəinki bizim regionda, dünyada onun bənzəri yoxdur. Şəhər tamamilə boşalıb, məscidlər dağıdılıb, tarix və mədəniyyət abidələri, Vaqifin məqbərəsi dağıdılıb, məzar daşı sındırılıb, Vaqifin barelyefi qırılıb, büstü məhv edilib. Natəvanın sarayı dağıdılıb, Bülbülün evi praktiki olaraq yarıdağıdılmış vəziyyətdədir, Üzeyir Hacıbəylinin evi isə artıq yoxdur, onun yalnız divarları qalıb. Bu, barbarlıqdır, bu, mədəni soyqırımıdır və buna heç cür haqq qazandırmaq olmaz. Müharibə qurtarıb, Azərbaycan qələbə qazanıb. Lakin biz bunu heç vaxt unutmayacağıq və heç vaxt unutmamalıyıq. Buna görə mənim göstərişimə əsasən bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləndə biz yəqin ki, hər şəhərdə bir məhəlləni, ola bilsin, böyük bir ərazini işğalçılardan sonra qalmış vəziyyətdə saxlayacağıq ki, Azərbaycan xalqı bunu heç vaxt unutmasın, gələcək nəsillər yadda saxlasınlar ki, biz öz torpağımızı qorumalıyıq və yalnız öz gücümüzə güvənməliyik. Əlbəttə, biz işğal edilmiş ərazilərdə dağıdılanların hamısını bərpa edəcəyik, bərpa prosesi başlanıb. Fikrimcə, bizim atdığımız ilk addımların nəticələri lap yaxın vaxtlarda görünəcək. Böyük qayıdış proqramı hazırlanır. Zənnimcə, lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik.

Hörmətli Baş katib, sizə, həmçinin TÜRKSOY-un rəhbərinə müharibə dövründə və müharibədən sonra bizi dəstəklədiyinizə görə təşəkkürümü bildirmək istərdim. Türk Şurasının Baş katibi müharibə dövründə dəfələrlə bəyanatlarla çıxış edib, müharibənin lap əvvəlində siz Azərbaycanı dəstəkləyən, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, onun sərhədlərinin toxunulmazlığını dəstəkləyən bəyanat vermisiniz. Həmçinin bəyan etmisiniz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmalıdır. Bu, müharibənin praktiki olaraq ikinci günü idi. Oktyabrın 20-də siz Gəncə şəhərinin ballistik raketlərlə bombalanmasını pisləyən bəyanatla çıxış etdiniz, Azərbaycan xalqına başsağlığı verdiniz. Daha sonra oktyabrın sonunda siz münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində nizamlanmasının zəruri olması barədə bəyanatla çıxış etdiniz, Ermənistan tərəfindən Cenevrə konvensiyalarının pozulması barədə danışdınız. Siz mənə noyabrın əvvəlində məktubla müraciət etdiniz, ayın 2-də isə sizinlə Bakıda görüşdük və siz Azərbaycanı dəstəklədiyinizi bir daha bildirdiniz. 44 gün ərzində dörd dəfə Türk Şurasının Baş katibi adından rəsmi bəyanat verildi. Biz bunu, həmçinin hazırda sizin Azərbaycanda olmağınızı, işğaldan azad edilmiş ərazilərə səfər etməyinizi, eşitdiklərinizi və yəqin ki, qismən televizorda gördüklərinizi öz gözlərinizlə görməyinizi çox yüksək qiymətləndiririk. Buna görə də sizə bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır. Biz başqa təşkilatlara - İslam Əməkdaşlıq Təşkilatına da, Qoşulmama Hərəkatına da təşəkkür edirik. Bu müddətdə bizi dəstəkləyən ölkələrə təşəkkür edirik.  Ona görə ki, bu çətin vaxtda mənəvi-siyasi dəstək, əlbəttə, bizim xalqımız üçün, habelə baş verənlər barədə həqiqəti bütün dünyanın daha çox bilməsi üçün olduqca vacibdir. Bizim qələbəmizin nəticələrindən biri o oldu ki, bu gün artıq 1990-cı illərin əvvəlində müharibəyə nəyin səbəb olması, işğalın nəticələrinin nədən ibarət olması, işğalçıların zəbt etdikləri ərazilərdə nələr törətməsi barədə heç kəsin şübhəsi yoxdur. Buna görə də həm beynəlxalq hüquq, həm Qarabağın Azərbaycana mənsub olması barədə tarixi həqiqət, həm də bu gün beynəlxalq kütləvi informasiya vasitələrinin, beynəlxalq təşkilatların əyani şəkildə gördükləri bizim haqlı olduğumuzu bir daha sübut edir. Biz 30 il ərzində bunu sübut edirdik və son nəticədə döyüş meydanında işğalçıları müqəddəs torpaqlarımızdan qovaraq silah gücünə bunu sübut etdik.

Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər. Buna görə də fikrimcə, əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək.

Əlbəttə, bizim tarix və mədəniyyət abidələrinin bərpasında TÜRKSOY-un fəal dəstəyinə ümid edirəm və buna əminəm. Ona görə ki, azad edilmiş ərazilərdə 70-ə yaxın məscid dağıdılıb, muzeylər qarət edilib, bütün sosial infrastruktur məhv edilib. Siz yəqin ki, Ağdamda Dram Teatrının qalan divarını görmüsünüz. Görünür, sadəcə, dağıtmaqdan yorulublar. Yəqin, sadəcə, daha gücləri çatmayıb. Buna görə də düşünürəm ki, işğalçı qüvvələrin barbarlığını, məhz bizim mədəni-tarixi irsin məhv edilməsini dünya ictimaiyyətinə çatdırmaq, həmçinin bizim tarixi-mədəni abidələrin bərpa edilməsində bizə kömək də TÜRKSOY-un diqqət mərkəzində olacaq. Bu proses artıq başlanıb. Ağdam məscidinə gəldikdə, artıq mütəxəssislər cəlb edilib. Bir neçə gün bundan əvvəl mən Şuşaya səfər edəndən sonra bizim dini abidələrin bərpasına dair işlərin başlanması üçün də göstərişlər vermişəm. Bu məsələdə Heydər Əliyev Fondu fəal rol oynayacaq. Vaqifin məqbərəsinin bərpasına dair təlimatlar da verilib. Mən onun bu il bərpa olunmasını tapşırmışam. Biz bu il Vaqif poeziya günləri keçirilməsini bərpa etməyi, həmçinin "Xarı bülbül" festivalı keçirməyi planlaşdırırıq. Mənim Şuşanı Azərbaycanın mədəni paytaxtı elan etməyim təsadüfi deyil. Fikrimcə, Şuşa bərpa ediləndən sonra öz təbiətinə, landşaftına, tarixinə, tarixi abidələrinə görə haqlı olaraq bütün regionun mədəni paytaxtına çevrilə bilər. Əlbəttə, ümid edirəm ki, siz bizə növbəti gəlişinizdə Şuşaya səfər edəcəksiniz. İndi biz artıq oraya yol çəkirik. Lap yaxın vaxtlarda, bu il beynəlxalq aeroport açılacaq. Buna görə də Şuşa hələ çox beynəlxalq tədbirlər görəcək, bütün tarixboyu olduğu kimi, öz dostlarını, qardaşlarını qəbul edəcək.

Sizə bir daha təşəkkür edirəm, bizi dəstəklədiyinizə görə sağ olun və sizə ən xoş arzularımı bildirirəm.

* * *

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi **Bağdad AMREYEV** dedi:

- Sağ olun, cənab Prezidentim. Bizi bu gün qəbul etdiyinizə görə çox təşəkkür edirəm. Əvvəla, Azərbaycanın Qarabağda qazandığı Zəfər münasibətilə başda zati-aliniz olmaqla bütün qardaş Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Azərbaycan torpaqlarının azad edilməsi sadəcə Azərbaycanın zəfəri deyil, bütün türk dünyasının böyük zəfəridir. Bu zəfər daim yanınızda olan türk xalqlarını çox sevindirmiş və qürurlandırmışdır. Türk dünyası adından Sizə bir daha təşəkkür edirəm, Azərbaycan və türk dünyasına yeni zəfərlər diləyirəm.

Cənab Prezident, bizə ruh yüksəkliyi verən çıxışınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

Həqiqətən, dünən biz işğaldan azad edilmiş ərazilərdə olduq, praktiki olaraq, tamamilə dağıdılmış obyektləri öz gözlərimizlə gördük. Əlbəttə, bu dağıntıların mənzərəsi olduqca təəssüf doğurur.

Mən mətbuat nümayəndələri ilə görüşüm zamanı demişəm ki, bu torpaqlar heç vaxt sahibsiz olmayıb, bu torpaqların həqiqi sahibləri var, onlar bu torpaqları özlərinə qaytardılar və çox tezliklə bu torpaqları, Füzulinin çiçəklənən torpaqlarını, şanlı Ağdam torpağını və azad olunmuş digər əraziləri bərpa edəcəklər. Bu yerlərin əvvəlki şöhrəti, əvvəlki zəngin siması çox tezliklə bərpa olunacaq.

Noyabrın 2-də biz ölkələrimizin biznes qurumlarının rəhbərləri ilə birlikdə burada olduq. O vaxt biz Azərbaycanın bərpa layihələrində bizim ölkələrin sahibkarlarının iştirakının mümkünlüyü məsələsini müzakirə etdik. Hazırda bu məsələ fəal müzakirə olunur. Tezliklə Bakıda bizim sahibkarların bu işlərdə iştirakına dair böyük biznes forum keçirəcəyik. Dünən mən digər türk təşkilatlarının rəhbərləri - TÜRKSOY-un Baş katibi Düsen Kurabayeviç Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə olmaq şərəfinə nail oldum. Biz mədəni abidələrin bərpasında bizim təşkilatların iştirakının mümkünlüyünü də müzakirə etdik və tezliklə bizim ölkələrlə birlikdə müvafiq iş aparacaq, görüşlər keçirəcək, bu abidələrin bərpasında Azərbaycanla birlikdə necə iştirak edəcəyimizi müzakirə edəcəyik.

Ölkələrimiz arasında ilkin danışıqlar bizim ölkələrimizin və xalqlarımızın Azərbaycana kömək etmək əzminin çox möhkəm olmasını göstərdi. Biz hər il türk dünyasının mədəni paytaxtını elan edirik. 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlər keçirilməsini təklif edirik. Bu tədbirlər Şuşanın bütün türk və İslam dünyası üçün böyük mədəni əhəmiyyətini vurğulayar. Dünən biz bu məsələni xarici işlər naziri cənab Bayramovla da müzakirə etdik. Siz icazə versəniz, biz bu işə başlayarıq, 2022-ci ildə Şuşada 20-yə yaxın mədəni tədbir keçirərik. Əminik ki, o vaxta qədər Şuşa bərpa olunacaq, öz əvvəlki simasını alacaq. Biz həmişə Sizin yanınızda olmuşuq və həmişə Sizin yanınızda olacağıq.

Fürsətdən istifadə edib, Türk Şurasının cari gündəliyi barədə Sizə məruzə etmək istərdim. Biz Bakı Sammiti zamanı Sizin verdiyiniz göstərişə əsasən, 2020-2025-ci illər üçün türk strategiyasının və 2020-2040-cı illər üçün türk dünyası barədə təsəvvürlərimizi əks etdirən sənədin hazırlanmasını başa çatdırmışıq. Bu sənəd türk dünyasının gələcəyini, bizim əməkdaşlığımızı, bütün sahələrdə - siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, turizm, gənclər və başqa sahələrdə inteqrasiyanı əks etdirir. Hazırlanmış həmin "Turkic World Vision-2040" sənədinin surətini bu gün mən Sizə təqdim etməyi özümə şərəf sayıram. Siz Türk Şurasının üzvü olan ölkələrin nazirlikləri və idarələri ilə sıx əlaqəli şəkildə işlənib hazırlanmış bu sənədi bəyənəndən sonra qarşıdakı sammitdə biz bir il ərzində onu reallaşdırmağa başlayacağıq.

Biz həm də bu il martın sonunda Türküstanda Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Abişeviç Nazarbayevin təşəbbüsü ilə qeyri-rəsmi sammitə, həmçinin bu ilin payızında İstanbulda keçirilməsi planlaşdırılan Türk Şurasının növbəti sammitinə hazırlaşırıq. Fikrimcə, bu sammitlər Sizin dəstəyinizlə bizim inteqrasiyanın inkişafı, türk dünyasının birləşməsi üçün daha bir dönüş anı olacaq.

Cənab Prezident, Türk Şurası bizim münasibətlərin daha da dərinləşməsi üzrə bütün zəruri işləri görməyə həmişə hazırdır. Türk dünyası üçün gördüyünüz bütün işlərə görə çox sağ olun.

* * *

Sonra Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibi Düsen Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdilər, türkdilli dövlətlərin və xalqların mədəni irsinə həsr edilmiş kitabları dövlət başçısına təqdim etdilər.

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

Sulavesi adasında baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 yanvar 2021-ci il*

## İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

İşğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri təsis edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinə Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri (bundan sonra - xüsusi nümayəndə) rəhbərlik edirlər.

3. Müəyyən edilsin ki:

3.1. xüsusi nümayəndə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi ərazi hüdudlarında Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir;

3.2. xüsusi nümayəndə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi ərazi hüdudlarında Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

4. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında əsasnamənin layihəsini və xüsusi nümayəndəliklərin fəaliyyətinin təşkilinə dair təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 yanvar 2021-ci il*

## Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli 1243 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Qarabağ Dirçəliş Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Qarabağ Dirçəliş Fondunun strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Qarabağ Dirçəliş Fondunun (bundan sonra - Fond) nizamnamə fondu 1 (bir) milyon manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşdırılır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Fond:

5.1. əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 yanvar  2021-ci il*

*Fərmana edilmiş əlavələrlə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib

Yanvarın 19-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib. Partiyadan AZƏRTAC-a bildiriblər ki, iclasda YAP İdarə Heyətinin 2020-ci ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin və Qadınlar Şurasının fəaliyyəti haqqında hesabat, partiyanın 2020-ci il üzrə maliyyə hesabatı, eləcə də İdarə Heyətinin 2021-ci ilin birinci rübünə dair iş planı müzakirə olunaraq qəbul edilib.

İdarə Heyətinin iclasında vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnən Vətən müharibəsi Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış ən şərəfli səhifələrdən biri olub. Vətən müharibəsi dövründə YAP milli həmrəyliyə səsləyən bir sıra bəyanat və müraciətlər qəbul edib, Ermənistanın hərbi təxribatları ilə əlaqədar "YouTube", "Twitter", "Facebook", "Instagram" və "Telegram" üzərindən çoxsaylı aksiyalar keçirib, 55 beynəlxalq təşkilata, 75 beynəlxalq KİV-ə, 197 parlamentə, onların sədrlərinə və deputatlarına, 97 dövlət və hökumət başçısına, 187 siyasi partiyaya, 165 ölkənin Xarici İşlər Nazirliyinə, ümumilikdə 800-ə yaxın ünvana təxminən 500 minədək e-mail göndərib.

İdarə Heyətinin iclasında 2020-ci il fevral ayının 9-da Milli Məclisə seçkilərin keçirilməsində, habelə koronavirus pandemiyasına qarşı mübarizənin aparılmasında Yeni Azərbaycan Partiyasının könüllülərinin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Prezidentin sərəncamı ilə "Könüllülər ili" elan edilən 2020-ci ildə partiyanın könüllüləri pandemiya ilə mübarizə çərçivəsində 70 mindən çox aztəminatlı ailəyə Heydər Əliyev Fondunun, Yeni Azərbaycan Partiyasının, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə ayrılmış yardımların çatdırılmasını təmin edib.

İdarə Heyətinin iclasında, həmçinin YAP-ın 2020-ci ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilib. Qeyd olunub ki, 2020-ci ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 12 288 708 manat olub. Bunun 10 346 294 manatını üzvlük haqları, 1 942 414 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil edib.

Yeni Azərbaycan Partiyasının hesabına daxil olan maliyyə vəsaitinin 6 969 745 manatı partiyanın İcra Katibliyinin və yerli təşkilatlarının əməkdaşlarının əməkhaqqının ödənilməsinə, 452 599 manatı Silahlı Qüvvələrin Yardım Fonduna, "YAŞAT" Fonduna və bu qəbildən digər humanitar aksiyalara, 625 148 manatı Koronavirusla Mübarizəyə Dəstək Fonduna və bu qəbildən digər humanitar aksiyalara, 347 569 manatı partiya və onun yerli təşkilatlarının, gənclər və qadınlar təşkilatlarının keçirdiyi tədbirlərin maliyyələşməsinə, xeyriyyə aksiyalarına, 34 357 manatı ezamiyyə xərclərinə, 302 192 manatı avtonəqliyyat xərclərinə, 242 229 manatı təsərrüfat inventarlarının alınmasına,  162 621 manatı təmir işlərinə, 457 566  manatı kommunal və təsərrüfat xərclərinə, 80 739 manatı bank xidmətinə, 86 610 manatı abunə ilə bağlı ödənişlərə,  57 720 manatı dəftərxana xərclərinə, 144 611 manatı çap işlərinə, 237 592 manatı isə sair xərclərə sərf edilib.

## Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi imzalanıb

Yanvarın 16-da Azərbaycan Respublikası, Əfqanıstan İslam Respublikası və Türkmənistan arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük və sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənəd üç ölkənin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət müvafiq İşçi Qrupun videokonfrans formatında görüşü zamanı Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, Əfqanıstan Mərkəzi Bankının sədri vəzifəsini icra edən Əcmal Əhmədi və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Bayramgeldi Ovezov tərəfindən imzalanıb. Görüşdə çıxış edən Baş nazirin müavini Şahin Mustafayev Azərbaycan, Əfqanıstan və Türkmənistan prezidentlərinin 2020-ci il iyulun 2-də videokonfrans vasitəsilə keçirilmiş görüşü zamanı Azərbaycanın dövlət başçısının irəli sürdüyü təşəbbüsə əsasən Azərbaycan tərəfindən üç ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi layihəsinin hazırlandığını qeyd edib. Layihənin razılaşdırılması məqsədilə müvafiq İşçi Qrupun və hər sahə üzrə müvafiq alt qrupların yaradıldığı, intensiv və məhsuldar müzakirələrin aparıldığı, silsilə tədbirlərin həyata keçirildiyi vurğulanıb.

Görüşdə Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişafına dair fikir mübadiləsi aparılıb.

# Milli Məclisin sədri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, TÜRKSOY-un, Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndələri ilə görüşüb



Yanvarın 19-da Milli Məclisin sədri Sahibə Qafarova Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Düsen Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun Prezidenti Günay Əfəndiyevanın təmsil olunduqları nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sədr qonaqları səmimi salamlayaraq türk dünyasını təmsil edən qurumların nümayəndələri ilə görüşdən məmnun olduğunu söyləyib. Qeyd edilib ki, bu təşkilatlar xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə layiqli töhfələr verir. Türkdilli dövlətlər arasında əməkdaşlığı təşviq etmək məqsədilə yaradılmış Türk Şurası qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində məqsədyönlü və uğurlu addımlar atır.

Bildirilib ki, bu gün ölkələrimizin liderləri arasında nümunəvi dostluq münasibətləri formalaşıb. Dövlət başçılarımızın siyasi iradəsi, ortaq köklərimizə sərgilədikləri hörmət və qayğı təqdirəlayiq olmaqla yanaşı, hər kəs üçün örnək təşkil edir.

Nümayəndə heyətinin üzvlərinin Azərbaycanın işğaldan azad olunmuş bölgələrinə səfərlərini yüksək qiymətləndirən spiker müzəffər Ordumuzun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində qazandığı uğuru böyük tarixi hadisə kimi dəyərləndirib. Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan Ordusu öz Zəfəri ilə münaqişənin həllinə dair bir çox beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan hüquqi sənədlərin, o cümlədən BMT-nin müvafiq qətnamələrinin icrasını həyata keçirdi, ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Sahibə Qafarova Vətən müharibəsində Azərbaycana verdiyi dəstəyə görə Türk Şurasının Baş katibinə təşəkkür edib.

Bildirilib ki, bu qurum təkcə türk dövlətlərini bir araya gətirməklə kifayətlənmir, həmçinin digər dövlətlər və regionlar arasında da körpü rolunu oynamağı hədəfləyir. Milli Məclis qanunverici orqan olaraq bundan sonra da Şura çərçivəsində inteqrasiya proseslərinin daha da dərinləşməsinə dəstək verəcək. Çünki bu təşkilat öz fəaliyyətində ortaq tarix, dil, kimlik və mədəniyyət kimi dəyərlərə əsaslanır.

Spiker ötən ilin aprelində Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş Şuranın fövqəladə iclasını xatırlayaraq, qurumun koronavirusa qarşı mübarizə işinə də töhfə verdiyini söyləyib.

Sədr milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə ötürülməsində Türk Şurası ilə birlikdə TÜRKPA, TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu kimi qurumların fəaliyyətindən danışaraq bildirib ki, bu təşkilatlar ölkələrimiz arasında iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrdə mövcud olan əməkdaşlığın dərinləşməsində yaxından iştirak edir.

Səmimi qəbul üçün nümayəndə heyəti adından minnətdarlığını bildirən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə münasibətilə Milli Məclisin sədrini və xalqımızı təbrik edib. Bu uğuru bütün türk dünyasını birləşdirən Zəfər kimi dəyərləndirib.

Qonaq ölkəmizə səfər çərçivəsində nümayəndə heyəti üzvlərinin Ağdam və Füzuli bölgələrində erməni işğalçıları tərəfindən törədilmiş vandalizmin şahidi olduqlarını söyləyib. O, işğaldan azad edilmiş ərazilərin bərpasında Türk Şurasının da iştirak etmək niyyətində olduğunu bildirib.

Qonaq təmsil etdiyi təşkilatın bundan sonra da türkdilli xalqlar naminə beynəlxalq müstəvidə fəaliyyətini daha da genişləndirəcəyini deyib. Vurğulanıb ki, bu gün 10-dan çox dövlət Türk Şurası ilə daha yaxından əməkdaşlıq etmək niyyətindədir.

Görüşdə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun Prezidenti Günay Əfəndiyeva çıxış edərək təmsil etdikləri təşkilatlarda görülən işlər və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, ölkəmizlə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində gələcək planları barədə fikirlərini bölüşüblər.

Görüşdə həmçinin türk dünyasını təmsil edən təşkilatlarla əməkdaşlığın perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə danışılıb.

# Tehranda Azərbaycan-İran əlaqələrinin perspektivləri müzakirə edilib

Tehranda səfərdə olan Azərbaycanın Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev yanvarın 18-də İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə qarşılıqlı əlaqələrin bugünkü vəziyyəti və perspektivləri müzakirə edilib.

Şahin Mustafayev Dövlət Komissiyasının İranda keçirilən 14-cü iclasından danışıb və qarşılıqlı əlaqələrin inkişafı baxımından komissiyanın işini yüksək qiymətləndirib.

Baş nazirin müavini bildirib ki, İran ilə Azərbaycan yaxın qonşu və dost dövlətlərdir. Qarşılıqlı əlaqələrin inkişafı hər iki dövlətin mənafeyinə uyğundur. Bu günədək Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti Həsən Ruhani arasında 13 görüş keçirilib. Hər iki prezident münasibətlərin yüksək səviyyədə inkişafı üçün siyasi iradə nümayiş etdiriblər. Bunun nəticəsidir ki, dövlətlərimiz arasında 100-dən çox sənəd imzalanıb.

Şahin Mustafayev Azərbaycan ərazilərinin işğaldan azad edilməsi üçün aparılan hərbi əməliyyatlar zamanı ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinə görə İran xalqına və dövlətinə minnətdarlığını bildirib. Nəzərə çatdırıb ki, Qarabağın işğaldan azad edilməsi regionda yeni vəziyyətin yaranmasına səbəb olub. Bu, region dövlətlərinin qarşılıqlı iqtisadi əlaqələr qurması üçün geniş imkanlar yaradıb.

Qeyd olunub ki, Bakı-Naxçıvan dəmir yolunun yenidən qurularaq istismara verilməsi Rusiya, Azərbaycan, İran, Türkiyə və Ermənistanın bir-biriləri ilə iqtisadi-ticarət əlaqələri yaratmasına imkan verəcək. Nəqliyyat və tranzit sahəsində faydalı əməkdaşlıq əlaqələri qurulacaq.

Şahin Mustafayev dövlətlərimiz arasında imzalanan sənədlərin icrası üzrə işlərin davam etdiyini nəzərə çatdırıb.

İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi müştərək iqtisadi komissiyanın fəaliyyətini yüksək qiymətləndirərək, bu komissiyanın işi nəticəsində bir çox məsələlərin həll olunduğunu bildirib. Nəzərə çatdırıb ki, İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Azərbaycan rayonlarının işğaldan azad olmasının sevindirici olduğunu qeyd edən Mahmud Vaezi bildirib ki, artıq regionda yeni imkanlar yaranıb və bu imkanlardan istifadə edib iqtisadi əlaqələri daha da genişləndirmək zərurəti meydana çıxıb. Yeni şəraitdə ölkələr arasında çoxtərəfli əməkdaşlıq üçün zəmin yaranıb.

Administrasiya rəhbəri vurğulayıb ki, Qarabağın bərpasında İran şirkətləri də iştirak etməyə hazırdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan-İran iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 14-cü iclası keçirilib

Yanvarın 18-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Komissiyasının 14-cü iclasında iştirak etmək məqsədilə İran İslam Respublikasına səfər edib.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Ş.Mustafayev İran İslam Respublikası Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi, iqtisadi işlər və maliyyə naziri Fərhad Dejpəsənd, yol və şəhərsalma naziri Məhəmməd Eslami və energetika naziri Rza Ərdəkanian ilə görüşüb danışıqlar aparıb.

Görüşlər zamanı ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinin əhəmiyyətini vurğulayan İran rəsmiləri Azərbaycanın işğal altındakı ərazilərinin azad olunması və Dağlıq Qarabağ münaqişəsinin başa çatması münasibətilə təbriklərini çatdırıblar. Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk günlərdən etibarən İranın Azərbaycan Respublikasının haqlı mövqeyini dəstəklədiyini bəyan ediblər. Eyni zamanda, İran tərəfinin işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası işlərində hərtərəfli dəstək göstərməyə hazır olduğu ifadə olunub.

Müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan-İran sərhədini dostluq sərhədi adlandırmasının İranda xoş qarşılandığı və yüksək qiymətləndirildiyi qeyd edilib. Regionda sülh, sabitlik və dayanıqlı inkişafın təmin olunması üçün anlaşılmazlığa səbəb olan və münasibətlərin gərginləşməsinə zəmin yaradan hər hansı bir hərəkət və ya addımdan çəkinməyin zəruriliyi qeyd edilib və fikir ayrılığının dialoq və danışıqlar yolu ilə aradan qaldırılmasının vacibliyi vurğulanıb. Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlıq platforması çərçivəsində keçirilən Zirvə görüşlərinin davam etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 14-cü iclası və keçirilən görüşlər zamanı iki ölkə münasibətlərinin gündəliyindəki məsələlər və görüləcək işlər barədə fikir mübadiləsi aparılıb. İclasın yekununda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 14-cü iclasının Anlaşma Memorandumu imzalanıb.

İranın Yol və Şəhərsalma Nazirliyində keçirilən görüş zamanı ölkələrimiz arasında yol-nəqliyyat və yüklərin daşınması sahələrində əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri müzakirə edilib. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində mövcud infrastrukturun təkmilləşdirilməsi, xüsusilə dəmir yolu ilə yük daşımaları sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin imkanları araşdırılıb.

Energetika Nazirliyində keçirilən görüşdə ölkələrimiz arasında elektroenergetika sahəsində əməkdaşlıq əlaqələri müzakirə olunub, icrada olan layihələrin sürətləndirilməsi istiqamətində atılacaq addımlar barədə fikir mübadiləsi aparılıb. Azərbaycan-İran-Rusiya enerji sistemlərinin sinxronlaşdırılması və Azərbaycan-İran-Türkiyə arasında elektrik enerjisi ticarəti məsələləri müzakirə edilib. Araz çayının su və enerji potensialından səmərəli istifadə edilməsi üçün icra olunan layihələrin əhəmiyyəti vurğulanıb. "Ordubad" və "Marazad" su elektrik stansiyaları ilə bağlı məsələlər üzrə razılıq əldə olunub, o cümlədən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyalarının tikintisinin başa çatdırılması üçün atılacaq növbəti addımlar müzakirə edilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika sahəsində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Baş nazirin müavini Şahin Mustafayev görüşlər zamanı Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin azad edilməsi, həmin ərazilərdə törədilmiş erməni vəhşiliyi, xüsusilə dini abidələrin dağıdılması və təhqir olunması ilə bağlı ətraflı məlumat verib, azad olunmuş ərazilərin tezliklə və tam bərpa ediləcəyini bildirib.

# Milli Məclis sədrinin müavini qanvermə aksiyasında iştirak edib

Azərbaycanda COVID-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiqi və Qarabağ müharibəsindən sonra yaranan problemlərlə əlaqədar ölkənin qan ehtiyatlarında müəyyən azalma baş verib. Buna görə müxtəlif vaxtlarda səhiyyə təşkilatları tərəfindən qanvermə ilə bağlı çağırışlar edilib. Çünki qan ehtiyatlarının azalması, xüsusilə qana ehtiyacı olan xəstələrin səhhətində çox ciddi problemlər yaradır, onların sağlamlığını risk altında qoyur.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ayrı-ayrı vaxtlarda Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən qanvermə aksiyaları kimi nəcib təşəbbüsə bu gün Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev və komitənin üzvü Şahin Seyidzadə də qoşulublar. Komitə tərəfindən "Yaşatmaq yaşamaq qədər gözəldir" şüarı altında növbəti dəfə qanvermə aksiyası təşkil edilib. Mərkəzi Qan Bankında baş tutan aksiyada təxminən 200-ə yaxın idmançı və gənc iştirak edib. Tədbir zamanı bütün tibbi-profilaktiki tədbirlər nəzərə alınıb, habelə Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrində nəzərdə tutulan şərtlərə əməl olunub.

Aksiyada iştirak edən vitse-spiker Adil Əliyev qana ehtiyacı olan xəstələr, müharibədə zədə alan yaralı və qazilərimiz üçün bu tədbirin keçirilməsinin zəruri olduğunu bildirib. O, aksiyanın keçirilməsi üçün məhz bu günün - yanvarın 19-nun seçilməsinin təsadüfi olmadığını vurğulayıb. Çünki bu gün bütün xalqımız - Qanlı 20 Yanvar hadisəsində şəhid olan insanların anım gününü qeyd edəcək. Adil Əliyev 20 Yanvar şəhidləri ilə yanaşı, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyü, konstitusiya quruluşunun müdafiəsi uğrunda canlarından keçən bütün insanlara Allahdan rəhmət diləyib. Milli Məclis sədrinin müavini dövlət başçısının "Biz birlikdə güclüyük!" şüarını rəhbər tutaraq hər kəsi qanvermə aksiyasında iştirak etməyə çağırıb, aksiya zamanı mövcud karantin qaydalarına riayət etməyi, qan vermək istəyən şəxslərin Qan Bankının ölkəmizin müxtəlif regionlarında yerləşən bölmələrinə müraciət etməsini tövsiyə edib.

# Milli Məclisin İnsan hüquqları və Regional məsələlər komitələrinin yaz sessiyasında ilk iclasları olub

Yanvarın 19-da Milli Məclisin İnsan hüquqları komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Zahid Oruc yaz sessiyasının başlaması münasibətilə komitə üzvlərini təbrik edib.

Əvvəlcə iclasda komitə sədrinin təklifi ilə 44 günlük müharibə zamanı torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi zamanı həlak olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Zahid Oruc gündəliyin birinci məsələsini - Milli Məclisin İnsan hüquqları komitəsinin 2020-ci il payız sessiyası dövründə gördüyü işlərə dair hesabatı diqqətə çatdırıb. Bildirib ki, 2020-ci ilin payız sessiyası dünyada hökm sürən bəşəri təhlükə şəraitində keçib. Buna baxmayaraq, parlamentimiz uğurlu platformalar taparaq fəaliyyətini bütün müstəvilərdə davam etdirib.

Payız sessiyasında komitənin 6 iclası keçirilib, 8 məsələ müzakirə olunub. Həmin dövrdə komitənin gördüyü vacib işlərdən biri Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə Azərbaycan tarixində hər zaman müqəddəs bir dövr kimi xatırlanacaq 44 günlük müharibəyə və onun nəticələrinə həsr olunmuş böyük toplantının keçirilməsi olub. Sessiya dövründə parlament üzvləri, o cümlədən komitə təmsilçiləri bütün platformalarda - informasiya, siyasi və diplomatik cəbhədə, o cümlədən vətəndaşlarımızla müxtəlif formatlı görüşlər keçirərək aktiv fəaliyyət göstəriblər. Komitə üzvlərinin qeyri-hökumət təşkilatları nümayəndələri və hüquq müdafiə xarakterində çalışan qurumlarla görüşləri olub. O cümlədən Vəkillər Kollegiyası tarixində ilk dəfə olaraq, Milli Məclisin İnsan hüquqları komitəsinin üzvləri ilə görüş keçirilib. Görüşdə hüquq qanunvericiliyi istiqamətində, praktiki fəaliyyət və xüsusilə də məhkəmə sistemində aparılan islahatların qiymətləndirilməsi baxımından müzakirələr aparılıb.

Payız sessiyası dövründə Azərbaycan və Türkiyənin bütün hakimiyyət qollarının birgə fəaliyyəti kontekstində Milli Məclisin sədri Sahibə Qafarovanın dəvəti ilə Türkiyə Böyük Millət Məclisinin rəhbəri Mustafa Şentop və TBMM-in İnsan haqları komitəsinin sədri Hakan Çavuşoğlu ölkəmizdə səfərdə olublar. Milli Məclisin İnsan hüquqları komitəsinin rəhbərliyi, o cümlədən bir nümayəndəsi TBMM-in müvafiq komitəsinin sədri Hakan Çavuşoğlu ilə Bərdə və Tərtər rayonuna səfər etmişik və onlar orada bir gün ərzində 500-dən artıq insanla görüş keçiriblər, xüsusilə də erməni vandalizminə və terroruna məruz qalan insanlarla görüşlərdə olublar. Bunun nəticəsi olaraq, Azərbaycan və Türkiyə parlamentlərinin insan haqları komitələrinin birgə istiqamətdə fəaliyyətə dair anlaşması var və bu fəaliyyət davam etdiriləcək. Komitə sədri diqqətə çatdırıb ki, payız sessiyası dövründə komitəyə 450-yə yaxın vətəndaşdan müraciətlər daxil olub, 200-dən artıq müraciət ayrı-ayrı hökumət strukturlarına, dövlət strukturlarına göndərilib.

İclasda komitə üzvləri Fazil Mustafa, Hikmət Məmmədov, Elman Nəsirov və Naqif Həmzəyevin fikirləri dinlənildikdən sonra hesabat səsə qoyularaq məqbul hesab edilib.

Sonra Zahid Oruc Milli Məclisin İnsan hüquqları komitəsinin 2021-ci il yaz sessiyası üçün iş planı barədə məlumat verib. Bildirib ki, yaz sessiyasında insan hüquqları üzrə müvəkkilin (ombudsmanın), insan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məruzələri dinləniləcək, "Diaspor haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq. Həmçinin insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəlikləri ilə əməkdaşlığın inkişaf etdirilməsi, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərinin cəzalandırılması, diffamasiya və "nifrət dili" haqqında qanunvericilik sahəsində dünya təcrübəsinin təhlili istiqamətində işlər aparılacaq.

Müzakirələr zamanı komitə üzvləri Bəhruz Məhərrəmov, Elşad Mirbəşiroğlu, Fazil Mustafa, Razi Nurullayev, Hikmət Məmmədov, Jalə Əhmədova, Tahir Kərimli və Naqif Həmzəyev çıxış edərək iş planı barədə fikirlərini bildiriblər. Qeyd olunub ki, Milli Məclis sədrinin təşəbbüsü əsasında Milli Məclisin komitələri və deputatları arasında informasiya mübadiləsi çox yüksək səviyyədə və effektiv təşkil olunub ki, bu da işin keyfiyyətinə öz müsbət təsirini göstərir. Sonra komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

İclasda "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsinə də baxılıb.

Komitənin sədri Zahid Oruc bildirib ki, Türkiyə mediasının tərkib hissəsini böyük media quruluşları təşkil edir və Türkiyə mediası qlobal medianın tərkib hissəsidir. Biz bunu praktiki olaraq 44 günlük müharibə dövründə bir daha gördük. Türkiyə mediası bizim haqq səsimizin dünyaya çatdırılmasında böyük rol oynadı. Prezident İlham Əliyevin müsahibələrinin də dünyaya yayılması Türkiyə mediası üzərindən oldu. Ona görə də bu memorandum bizim üçün mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən komitə üzvləri Hikmət Məmmədov, Elman Nəsirov və Elşad Mirbəşiroğlu bildiriblər ki, sənəd Azərbaycan-Türkiyə əməkdaşlığının yeni bir istiqamətini təyin etmək baxımından çox önəmlidir.

Sonra qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

* * *

Yanvarın 19-da Milli Məclisin Regional məsələlər komitəsi yaz sessiyasında videoformatda ilk iclasını keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasdakı bütün çıxışlarda 2020-ci ilin payız sessiyasının tariximizə qızıl hərflərlə yazılan dövrə təsadüf etdiyi vurğulanıb. Qeyd edilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər nəticəsində torpaqlarımız işğaldan azad olunub. Həmin dövrdə Milli Məclisin rəhbərliyi və deputatlar beynəlxalq ictimaiyyəti məlumatlandırmaq, Ermənistanın dinc azərbaycanlı əhaliyə qarşı hərbi təxribatları ilə bağlı həqiqətləri çatdırmaq istiqamətində fəallıq nümayiş etdiriblər. Sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində fəal çıxışlar edilib, müxtəlif ölkələrin parlamentlərinə müraciətlər ünvanlanıb.

Onlayn iclasda 2020-ci ilin payız sessiyası dövründə komitədə görülən işlərin hesabatı təqdim edilərkən bildirilib ki, ötən il dünyanı çənginə alan COVID-19 pandemiyası ilə əlaqədar olaraq komitə payız sessiyası dövründə də koronavirusa qarşı mübarizə tədbirlərini dəstəkləyib və iclasların onlayn formatda keçirilməsinə üstünlük verib. Beləliklə, hesabat dövründə Regional məsələlər komitəsi 9-u onlayn olmaqla ümumilikdə 13 iclas keçirib. İclaslarda 27 məsələ müzakirəyə çıxarılıb, 25 qanun layihəsi plenar iclaslara tövsiyə edilib və hamısı Milli Məclisdə qəbul olunub.

Hesabatda vurğulanıb ki, ölkədə koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə vətəndaşların qəbulu məsələsində də onlayn və elektron müraciətlərə üstünlük verilib, ərizə və şikayətlərin araşdırılmasına, müvafiq tədbirlər görülməsinə həssaslıqla yanaşılıb.

İclasda Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov diqqətə çatdırıb ki, hesabat dövründə komitəyə 600-ə yaxın müraciət daxil olub və həll edilib. Sorğular və məktublar vaxtında cavablandırılıb. Deputatlar vətəndaşlarla, seçicilərlə iş istiqamətində fəaliyyətləri barədə komitə iclaslarında müntəzəm olaraq hesabat xarakterli məlumatlar veriblər.

2021-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planı haqqında danışan komitə sədri bildirib ki, bu sənəd həm qanun yaradıcılığını, həm də müxtəlif səpkili tədbirləri əhatə edir. Siyavuş Novruzov qeyd edib ki, yaz sessiyası dövründə şəhər, kənd və qəsəbələr üzrə Milli Bələdiyyə assosiasiyalarının rəhbərləri ilə, gənc bələdiyyə sədrləri və qadın bələdiyyə sədrləri ilə parlament dinləmələrinin keçirilməsi də məqsədəuyğundur.

İclasda çıxış edən komitə sədrinin müavini Elşən Musayev, deputatlar Tahir Rzayev, Kamran Bayramov, Aqil Məmmədov, Səttar Möhbalıyev, Cavid Osmanov payız sessiyası dövründə komitədə böyük işlərin görüldüyünü vurğulayıb, hesabat dövrünün çox məhsuldar olduğunu qeyd ediblər. Daha sonra yaz sessiyasının iş planına dair bir sıra təkliflər irəli sürülüb.

Müzakirələrin yekununda hesabat məqbul sayılıb. İş planı təkliflər nəzərə alınmaqla qəbul olunub. Komitədə baxılan məsələlər parlamentin plenar iclasına tövsiyə edilib.

İclasda komitənin üzvləri Malik Həsənov, Nizami Cəfərov, Emin Hacıyev, Məzahir Əfəndiyev, Əliabbas Salahzadə, Səbinə Xasayeva da iştirak ediblər.




# Tariximizin qürur və şərəf səhifəsi







*Əvvəli 1-ci səh.*

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri bu faciə ilə bağlı əsil həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Onların Yanvar hadisələrinə siyasi - hüquqi qiymət verilməsi ilə bağlı kifayət qədər vaxtları və imkanları olsa da, heç biri bunu etmədi. Baxmayaraq ki, hadisəyə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində çox iş görmək olardı. Əksinə, müxtəlif səthi qərarlar qəbul edə-edə və ya etdirə-etdirə 20 Yanvar faciəsinin müsibətlərini xalqımıza unutdurmağa çalışdılar.

Yalnız Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsil mahiyyəti onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Prezident Heydər Əliyev bu barədə deyirdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsil mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu Öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi.1994-cü ilin mart ayının 29-da respublika parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gucləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu Öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub.

Ulu Öndər 31 mart 1998-ci il tarixdə "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında fərman imzaladı. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə təsdiq edildi. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verildi.

Heydər Əliyev yolunu uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısının "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncamında deyilir: "1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar".

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar verib. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Prezident İlham Əliyevin "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 19 yanvar 2011-ci il tarixli fərmanı ilə isə bu hadisədə əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilir.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

31 il əvvəl, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm də milli qürur günü kimi düşən 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya çatdırdı.

***Rəşad CƏFƏRLİ,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***



# Qanlı şənbədən azadlığa uzanan yol



*Əvvəli 1-ci səh.*

Azərbaycanın müstəqilliyi, demokratik dövlət yaratmaq amalı ilə ayağa qalxmış mərd xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq, azadlıq eşqini boğmaq məqsədi ilə törədilmiş bu faciə qan yaddaşımızdır. Bu tariximizin elə bir salnaməsidir ki, hər səhifəsini vərəqlədikcə azadlıq uğrunda aparılan haqq savaşı ilə, Vətən uğrunda gözünü qırpmadan qurban olmağa hazır qəhrəmanlarla, zülmə boyun əyməyən oğulların rəşadəti ilə fəxr edirik, düşmənlərin qanlı-qadalı əməllərinə şahidlik edib bir daha qəzəb atəşi ilə alovlanırıq...

## Əliyalın insanlara qarşı qətliam törədildi

1987-ci ilin sonlarında ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq Bakının küçələrinə və meydanlarına çıxıb etirazını bildirirdi. Amma 1990-cı ilin yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq eşqini, haqq səsini boğmaq üçün geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı.




Sovet ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Həmin gün SSRİ müdafiə naziri D.Yazovun birbaşa nəzarəti altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular. Qeyd edək ki, Bakıda yanvarın 20-si saat 00:00-da fövqəladə vəziyyət tətbiq edilməsi üzrə imzalanmış fərman səhər saat 5:30-da radio ilə elan olunmuşdur. Həmin vaxtadək 100-dən çox dinc sakin artıq qətlə yetirilmişdi. 1990-cı ilin yanvarında Bakı və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 130-dan çox insan amansızcasına öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, 4 nəfər itkin düşdü.

## Bu qan yerdə qalmaz...

1990-cı ilin yanvarında baş verən sovet zülmünə qarşı "Bu qan yerdə qalmaz" səsləndirən qəzəbli insan izdihamı Azadlıq meydanına axışdı. Onlar müstəqillik uğrunda şəhid olan vətən övladlarının cənazələrinin Bakının ən hündür nöqtəsində torpağa tapşırılmasını istəyirdilər...

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın Azadlıq meydanında şəhidlərin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edirdi.

Azadlıq mücahidlərinin sıra-sıra düzülmüş əbədiyyət məkanlarının ilk səfində isə qoşa qəbir qazıldı, azadlıq və sevgi yolunda birgə addımlayan Fərizə və İlhamın məzarı...

## Faciəyə ilk siyasi qiyməti Heydər Əliyev verdi

O zaman faciəyə ilk olaraq öz münasibətini bildirən Ümummilli Lider Heydər Əliyev oldu. Ulu Öndər qətliamdan bir gün sonra, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi.

Azərbaycan rəhbərliyinə qayıdışdan sonra Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə Milli Məclis faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verdi.

Yanvar faciəsində qətlə yetirilənlərin, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilib. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksi yaradılıb.

1998-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldılıb. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş və yaralanmış insanların ad və soyadları, eləcə də Ümummilli Lider Heydər Əliyevin "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" - sözləri həkk olunub.

## Şəhidlər xiyabanından verilən müjdə

Zaman 1990-cı ilin yanvarı...

Məkan Azərbaycan idi...

Qara dona bürünmüşdü Bakı... Parçalanmış bağrından al-qırmızıya bükülmüş şəhid tabutları süzülürdü... Beli sınmış qərənfillər axan göz yaşları ilə yollara qanlı cığır salırdı Bakının ən uca zirvəsinə sarı...

Milyonların azadlıq karvanı al dona bürünmüş haqq mücahidlərini başlarının üzərinə qaldırıb müqəddəs and yerimizə, Azərbaycanın müstəqillik simvoluna çevriləcək Şəhidlər xiyabanına doğru irəliləmişdi...

Haqsızlığa dirənc göstərərək, sinələrini zülmün topuna, gülləsinə sipər edənləri, Vətən uğrunda şəhadət şərbəti içənləri haqqın dərgahına uğurlamışdılar...

Azərbaycan xalqı elə həmin gün, o uca məqamda torpağı, azadlığı, xalqı, onun gələcəyi naminə haqq səsini ucaltmağı bacaran oğullarına, qızlarına müqəddəs bir söz də vermişdi. And içmişdi ki, uğrunda can qoyduqları bu Vətənin müstəqilliyini təmin edəcək, doğma ərazilərinə göz dikən mənfur düşmənə layiqli cavab verərək ərazi bütövlüyünü əbədiyyətədək qoruyacaq...

Və şanlı Azərbaycan əsgərinin 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Zəfər yürüşü düz 31 il əvvəl öhdəmizə götürdüyümüz Vətən borcunun da yerinə yetdiyi, şəhidlərimizin ruhunun şad olduğu müqəddəs anlarla tarixə həkk olundu.

Heç təsadüfi deyildi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın tacı Şuşanın işğalçılardan azad edilməsi xəbərini də məhz Şəhidlər xiyabanından Azərbaycan xalqına müjdələdi: "2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik".

Bəli, Azərbaycan xalqı zülmə, istibdada qarşı barışmaz olduğunu 20 Yanvar gecəsində sübut etdiyi kimi, illər sonra düşməni dəmir yumruğu ilə yerinə otuzduraraq bir daha bütün dünyaya bəyan etdi.

44 günlük müharibədəki Qələbə ilə xalqımız Vətəni canından, qanından artıq sevdiyini nümayiş etdirdi. Şəhidlərin ruhu da rahatdır, çünki ugrunda canlarından keçdikləri milli haqqlarımız artıq bərqərar olub...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azadlıq aşiqləri ölməzdirlər

Bu günlərdə Bakı şəhər Mədəniyyət Baş idarəsi Sabunçu rayon MKS-nin 12 saylı kitabxana filialında onlayn formatda "20 Yanvar şəhidlərini unutmarıq" adlı kitab sərgisi keçirmişdir. Sonra əməkdaşlar bir qrup oxucu ilə Şəhidlər xiyabanını ziyarət etmişlər.

Filialın müdiri Vəsilə Məmmədova deyir ki, "Qanlı Yanvar" faciəsindən xalqımızı 31 illik vaxt ayırır: "Azərbaycan xalqı zaman-zaman ağır faciələrlə üzləşmiş, haqsızlıqlarla qarşılaşmışdır. Xalqımızın başına gətirilən belə faciələrdən biri də qanlı 20 Yanvar faciəsi idi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş sovet ittifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

Bu matəm günü ərəfəsində biz bir daha çağdaş milli azadlıq mübarizəsinin öncülləri, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində örnək olan şəhidlərimizə Allahdan rəhmət diləyirik".

Qeyd olunmuşdur ki, bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, dünyada diqqət mərkəzində olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində də mühüm işlər görür.

Heydər Əliyev Fondunun vitse-prezidenti, "Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı"nın sədri Leyla Əliyevanın da xalqımızın tarixinə, önəmli hadisələrinə həssas münasibəti xüsusi qeyd olunmalıdır. Xatırladaq ki, 20 Yanvar dəhşətlərindən iki il sonra daşnakların Xocalıda amansızlıqla törətdiyi faciənin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması Leyla Əliyevanın təşəbbüsü ilə geniş kampaniyaya çevrildi. "Xocalıya ədalət" kompaniyası çərçivəsində reallaşdırılan tədbirlər hər yerdə böyük əks-səda doğurdu.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***









# Azərbaycan ombudsmanı 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bəyanatda deyilir: "31 il əvvəl SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı qeyri-insani və xəyanətkar siyasəti nəticəsində insanlığa qarşı törədilmiş qatı cinayət hadisəsi olan 20 Yanvar faciəsi xalqımızın yaddaşına Qara Yanvar gecəsi kimi həkk olunub. Bu, həm də öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirən bir tarixdir.

Həmin zaman xalq SSRİ rəhbərliyinin qərəzli siyasətinə etiraz edir, azərbaycanlılara qarşı Ermənistanda, habelə separatçılar tərəfindən Dağlıq Qarabağda törədilmiş bəşəri cinayətlərin araşdırılmasını və cinayətkarların cəzalandırılmasını tələb edirdi. Məhz xalqımızın etiraz səsini boğmaq, Azərbaycanın müstəqilliyə gedən yolunun qarşısını almaq məqsədilə ovaxtkı SSRİ rəhbərliyi tərəfindən 20 Yanvar qırğını törədildi.

Planlaşdırılan hadisə barədə məlumatın əhalidən və ümumiyyətlə, dünya ictimaiyyətindən gizlədilməsi məqsədilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təşkil etdiyi təxribat nəticəsində hadisədən bir gün əvvəl Azərbaycan Dövlət Televiziyasının enerji bloku partladıldı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşunları əvvəlcədən fövqəladə vəziyyət elan edilmədən Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin digər şəhər və rayonlarına yeridildi, dinc əhali müxtəlif növ silahlardan atəşə məruz qoyuldu. Silahlı qoşun birləşmələri milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq, 140-dan çox silahsız mülki şəxsi, o cümlədən uşaqları, qadınları və yaşlıları amansızcasına öldürüb, Bakı şəhərində və başqa ərazilərdə 744 dinc, günahsız insan yaralanıb, yüzlərlə adam itkin düşüb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Həmin hadisələr zamanı hətta yaralıları çıxaran təcili tibbi yardım maşınlarına və həkimlərə də atəş açılıb, nəticədə tibb işçiləri şəhid olub, yaralanıblar. Eyni zamanda, yanvarın 20-də fövqəladə vəziyyət elan edildikdən sonra daha 21 nəfər öldürülüb.

Bununla beynəlxalq hüquq normaları, fundamental insan hüquqları kobudcasına pozulub, doğma yurdunun azadlığının və öz hüquqlarının müdafiəsinə qalxmış çoxmillətli xalqımıza qarşı insanlıq əleyhinə qatı cinayət törədilib.

1990-cı il yanvarın 21-də ümummilli liderimiz Heydər Əliyev bu qanlı hadisələrlə bağlı Moskva şəhərində Azərbaycan xalqı adından sərt bəyanat verib, xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını tələb edib.

İnsanlıq əleyhinə törədilmiş bu dəhşətli cinayət əməli BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlərin kobud şəkildə pozulmasıdır. Beynəlxalq hüquqa əsasən, 20 Yanvar faciəsi insanlıq əleyhinə cinayət kimi tövsif edilməlidir. Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 7-ci maddəsinə əsasən, insanların məhv edilməsi, məcburi yoxa çıxarılması, siyasi, irqi, etnik, mədəni və ya cinsi motivlərə görə təqib edilməsi, işgəncə, qəsdən güclü iztirablara səbəb olma və ya ağır bədən xəsarətləri, yaxud fiziki və ya psixi sağlamlığa mühüm ziyan vurmaqdan ibarət olan digər qeyri-insani hərəkətlər insanlıq əleyhinə cinayət kimi tövsif edilir.

Sovet ordusunun xalqımıza qarşı törətdiyi 20 Yanvar faciəsi xalqımızın iradəsini qıra bilmədi və azadlıq mübarizəsi 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini bərpa etməsi ilə nəticələndi.

1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gələn Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirib və bu qanlı hadisəyə siyasi-hüquqi qiymət verilib, 20 Yanvar tarixi "Ümumxalq Hüzn günü" elan edilib. Hər il həmin tarixdə şəhidlərin xatirəsi yüz minlərlə insan tərəfindən ehtiramla yad edilir.

Bu qanlı hadisələr zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına ölkə Prezidentinin müvafiq Fərmanına əsasən "20 Yanvar şəhidi" fəxri adı verilmişdir, habelə 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısı davam etdirilir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, o dövrdə Sovet dövlətinin rəhbərliyi tərəfindən Ermənistana dəstək verilməsi nəticəsində Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı törədilib, torpaqlarımızın 20 faizi zəbt edilib, Ermənistan ərazisindən, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və ətraf yeddi rayondan yerli azərbaycanlı əhali zorla qovulub, bir milyona yaxın dinc əhalinin fundamental hüquqları pozulub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsindən imtina edən və yeni ərazilər işğal etmək istəyində olan Ermənistan 2020-ci il iyul və avqust aylarında ordumuzun mövqeləri istiqamətində təxribatlar törədib, sentyabr ayının sonlarında atəşkəsi pozaraq, Azərbaycan Ordusunun mövqelərini və mülki yaşayış məntəqələrini atəşə tutub. Nəticədə çoxsaylı hərbçi və mülki şəxslər həlak olub, yaralanıb, mülki obyektlərə, o cümlədən yaşayış binalarına ciddi ziyan dəyib. Buna cavab olaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ilin 27 sentyabr tarixində əks-hücum əməliyyatına başlayaraq qısa müddətdə ərazilərimizin çox hissəsini işğaldan azad edib, noyabrın 10-da Ermənistan dövlətinin tam məğlubiyyətini rəsmiləşdirən tarixi sənəd imzalanıb. İşğal altında olan torpaqlarımızın azad edilməsi və yüz minlərlə dinc əhalinin öz dədə-baba torpaqlarına qayıtmaq imkanının yaradılması ilə onların fundamental hüquqları bərpa edilib.

Lakin təəssüflə qeyd etmək istərdik ki, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində beynəlxalq hüquqi sənədlər kobud şəkildə pozulsa da, öz mahiyyətinə və miqyasına görə XX əsrdə törədilmiş ən dəhşətli cinayətlərdən olan 20 Yanvar faciəsinə indiyədək beynəlxalq hüquqi qiymət verilməyib, aksiyanın sifarişçiləri və icraçıları cəzalandırılmayıb.

20 Yanvar hadisələrinin beynəlxalq hüquqa əsasən, beynəlxalq cinayətlərin ən ağır növlərindən olan insanlıq əleyhinə cinayət kimi tövsif edilməsi, bu vəhşilikləri törətmiş hərbi qulluqçuların və onların icrasına əmr verənlərin, ən əvvəl isə o vaxtkı sovet dövləti rəhbərliyinin cinayət məsuliyyətinə cəlb olunması üçün yetərincə hüquqi əsaslar vardır.

İnanırıq ki, tezliklə 1990-cı il 20 Yanvar faciəsinə beynəlxalq səviyyədə hüquqi qiymət verilərək bu qanlı cinayəti törədənlər məsuliyyətə cəlb olunacaq.

Biz beynəlxalq qurumları və bütövlükdə dünya ictimaiyyətini insan hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnən, eləcə də beynəlxalq hüquq normalarına zidd olan bu cinayət hadisəsinə hüquqi qiymət verməyə çağırırıq".

Bəyanat BMT-nin baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

# Yaralılara aman verməyən "tufan"

## O gecə təcili yardım maşınları da güllələbaran edilmişdi



Düz 31 il bundan öncə, 1990-cı il yanvar ayının əvvəlindən Azərbaycanı həyəcan bürüyürdü. Paytaxt Bakının üstünə də qara buludlar çökmüşdü. Həmin ilin qışı özünü daha sərt göstərirdi: şaxta qılınc kimi kəsir, soyuq iliyə işləyirdi. Bəlkə də Bakı sovetlərin hakimiyyətdə olduğu yetmiş illik tarixdə belə günləri ni yaşamamışdı. Şəhərdə hərbçilər həmişəkindən daha çox, həm də vahiməli görünürdülər. Hələlik ciddi hadisə baş verməsə də, güclü bir tufan və qasırğanın yaxınlaşdığı hiss olunurdu.

Bu, "şimal küləyi"nin gətirdiyi "qasırğa" idi. Qarşısına çıxan hər şeyi, hər kəsi məhv etməyə hazır idi. Gözlənilməz "tufan" uşağa, böyüyə, qocaya... aman vermirdi. Bir gecənin içərisində Bakı və onun sülhpərvər, qonaqpərvər, tolerantlıq nümunəsi olan sakinləri, eləcə də şəhərin o gecəki qonaqları hədəfə alındı. Milli mənsubiyyətindən, dinindən və əqidəsindən asılı olmayaraq, Bakıda hər kəs yetmiş illik tarixin hökmdarı olan sovet imperiyasının qoşunları ilə yanvarın 19-dan 20-nə keçən gecə üz-üzə dayandı: şəhidlik zirvəsinə yüksəldi, amma xalqımızın və paytaxtımızın diz çökməsinə imkan vermədi azadlıq mücahidləri!

Həmin gecə dinc əhalinin üstünə ağır hərbi texnika yeridilləndə həyatları təhlükə altında olanlar, həm də həkimlər, tibb bacıları və texniki işçilər idi. 20 Yanvar qətliamında həkimlərə, təcili yardım maşınlarına güllə atanlarla üz-üzə qalanlardan biri də uşaq cərrahı ixtisasına yiyələnmiş Adil Hüseynov idi. O, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecənin nəinki canlı şahidi, həm də Musa Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasında çalışan, yaralıları amansız ölümün pəncəsindən xilas edənlərdən biri idi.

Fikirlərini o gecənin yaratdığı vahiməyə, qanlı-qadalı günlərdə qarşılaşdığı amansızlıqlara yönəltməyə çalışan həkim deyir ki, 20 Yanvar hadisələrində həkimlərimiz öz müqəddəs peşə andlarına sadiq qalaraq zərər çəkmiş insanların köməyinə yetməyə çalışırdılar. Məhz bunun nəticəsində neçələri göstərilən təcili tibbi yardımlar hesabına amansız və vaxtsız qanlı ölümün pəncəsindən xilas edildi: "1990-ci il yanvarın 19-dan 20-ə keçən gecə, saat təqribən 23:30-da Bakı şəhərinə keçmiş sovet ittifaqının qoşun birləşmələri Azərbaycanda fövqəladə vəziyyət elan edilmədən paytaxt Bakıya hücum edib. Həmin gecə yüzlərlə dinc şəhər sakininə, hətta məktəblilərə amancıscasına divan tutuldu. O ağır və dəhşətli günlərdə Bakıda və respublikanın ayrı-ayrı bölgələrində 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər isə qanunsuz olaraq həbs edildi".

Bu faciədə xalqımızın ağrı-acısını daha çox hiss edən, əlbəttə, həkimlərimiz oldu. Ona görə ki, onlar gecə-gündüz yaralılarımızı amansız ölümün pəncəsindən xilas etməyə çalışır, bununla da öz vətənpərvərliklərini, azadlıq uğrunda mücadilənin önündə dayandıqlarını göstərirdilər.

Bu işin Bakıda daha çox təcili yardımın üzərinə düşdüyünü hamı bilir. Həmin qanlı faciədə yaralanmış insanların əksəriyyəti M.Nağıyev adına xəstəxanaya daşınmış və orada onlara təcili tibbi yardım göstərilmişdi.

Həkim həmin gecəni və sabahısı günü qarşılaşdığı hadisələri bizimlə bölüşür: "Həmin gecə qardaşım, İslam həkim də bizdəydi. Qəfildən eşitdiyimiz atəş səsləri bizi də çaşdırdı. Yaşayış binasının balkonuna çıxmaq da təhlükəli idi. Birtəhər balkona çıxdıq və atışmanın yaxınlaşdığını hiss etdik. Televiziyanın enerji blokunu vurub partlatmışdılar, kanal işləmirdi. Radiodan eşitdik ki, sovet qoşunları Bakıya girib.

Həkim olduğum üçün evdə qala bilməzdim. Təcili evdən çıxmağa hazırlaşanda qardaşım qoymadı. Küçəyə çıxmaq çox təhlükəli idi. Dəfələrlə cəhd etməyimizə baxmayaraq, binanın qarşısını kəsən vəhşi silahlılar qaraltıya belə güllə atır, xəbərdarlıq edir, evdən bayıra çıxanların güllələnəcəyini bildirirdilər. Şəhər güllələbaran edilirdi. Tezdən alatoranda evdən gizlicə çıxdım. Dənizkənarı parkın da ətrafı ağır zirehli texnika ilə dolu idi. Hökumət evinin yanından keçib getməyə imkan vermirdilər. Yolu bağlamışdılar. Həkim olduğumu desəm də əhəmiyyət vermədilər, hətta mənə kobud cavab qaytarıb, üstümə silah çəkdilər. Məcbur olub ara yollarla özümü xəstəxanaya çatdırdım. Xəstəxananın həyəti, eləcə də binanın birinci mərtəbəsi "qan gölməçəsi" idi. Adamı dəhşətə gətirən mənzərə yaranmışdı. Təcili yardım maşınları aravermədən, həyəcan sıqanlı ilə həyətə girib-çıxır, yaralıları daşıyırdı.

Şöbəmizə qalxdım. Həkimlər, tibb bacıları, hamı həyəcan içərisindəydi. Tez geyimimi dəyişib əməliyyat otağına getdim. Gecə növbəsində olan həkimlər çox yorulmuşdular, halları belə qalmamışdı. Artıq yeni gətirilən yaralılara biz yardım göstərməyə başladıq.

Heç yadımdan çıxmaz. Xərəkdə 15 yaşında bir oğlan uşağı gətirdilər. Qarın nahiyəsindən güllə yarası almış oğlanı təcili əməliyyata götürdük. Əməliyyat zamanı xəstənin qarın boşluğunun qanla dolu olmasını, dalağın və bağırsaqların bir neçə yerdən yaralanması aşkar edildi. Təbii ki, dalaq çıxarıldı, bağarsaqlar tikildi. Beləliklə, günahsız oğlanı amansız və vaxtsız ölümün pəncəsindən xilas etdik. İki həftə sonra o, sağalaraq evə, ailəsinə döndü. Həyatını xilas etdiyim yaralının adı Tural idi. Atası Nazim müəllim də ayağından güllə yarası almışdı. Onun da yarasını sarıyıb qanaxmasının qarşısını aldıq. Həmin hadisə bizim onlarla ailəvi dostluğumuza səbəb oldu".







Həkim deyir ki, o zaman Bakı şəhərində cəmi 15 təcili yardım stansiyası var idi. Stansiyalarla əlaqə ancaq hava telefonları ("ratsiya" qurğuları) vasitəsilə saxlanılırdı. Gecə daxil olan məlumatda göstərilirdi ki, Bakı-Mərdəkan yolunda bir təcili yardım maşını vurulub. Mərdəkandakı 10-cu təcili yardım stansiyasının əməkdaşı, həkim Aleksandr Marxevka çağırışa gedəndə yolda güllə yağışına tutulmuşdu. Yaralıya çatdırmaq istədiyi "sistem" şüşəsi əlində qalan həkimin özünə yardım etmək belə mümkün olmamışdı.

Gecə saat 12-də "Salyan kazarması"ndan havaya işıqsaçan güllələr atılandan az sonra Bakı Şəhər Təcili Yardım və Təxirəsalınmaz Stansiyasına, eləcə də digər xəstəxana və poliklinikalara yaralılar gətirilirdi. Bütün bunlar Bakı əhalisini yalnız çaşbaş salmamışdı, eyni zamanda, streslər, həyəcan və qorxular da insanlara təcili tibbi yardım göstərməyə məcbur edirdi.

O zaman Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi işləyən Sabir Adnayevin həyəcanlı səsi həkimləri sanki hərbi rejimə köklənmişdi. Onlar hətta özlərini yaralının üstünə maşınsız yetirirdilər. 67 nömrəli təcili yardım maşını da indiki Gömrük Komitəsi binasının arxasındakı yaşayış binalarından birinə çağırışa gedəndə güllə yağışına tutulmuşdu. Həkim yaralıya tibbi yardım göstərmək üçün binaya daxil olanda sürücü həyətdə maşında gözləyirmiş. Əli avtomatlı hərbçilər yaxınlaşıb ona buranı tərk etmək əmrini verəndə sürücü həkim və xəstə gözlədiyini bildirmişdi. Bu cavabdan qəzəblənən hərbçilər maşını vermişdilər güllənin qabağına. Sürücü zorla binanın dalanına girib yuxarı mərtəbələrə qaçmaqla canını qurtarmışdı.

Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın da o müdhiş şənbə gecəsində göstərdiyi vətənpərvərlik sonralar dillər əzbərinə çevrildi. Yasamaldakı təcili yardım stansiyasında çalışırdı. Onun yaralılara necə kömək göstərdiyinin canlı şahidi olanlar deyirlər ki, Gültəkin o gecədən təsadüf nəticəsində salamat çıxmışdı. Sən demə, taleyinə Bakıdakı kimi, Qarabağda da düşmənlə üz-üzə gəlmək yazılıbmış. Ön cəbhəyə igid oğulların yarasını sarımağa gedəcəkdi. Təəssüf ki, bu od parçası cəbhədə yaralılara yardım göstərərkən düşmən gülləsinə tuş gəldi.

Uşaqlar üzərində daim cərrahiyyə əməliyyatı aparan Adil Hüseynov cəllad və qatillərin azyaşlılara güllə atmasını vəhşilik, vandallıq adlandıraraq deyir ki, hətta yanvarın 26-dək müxtəlif istiqamətlərdən yaralılar tapılıb xəstəxanalara çatdırılırdı: "...Həmin günlər Bakıda 164 təcili yardım briqadası çalışırdı. Yalnız yaralılara ilk tibbi yardım göstərilməsi, onların xəstəxanalara çatdırılması və şəhidlərin dəfninə qədər hazırlıq prosesindəki xidmət işlərinə yüz həkim briqadası ayrılmışdı. Qanlı şənbə gecəsi və ondan sonrakı günlərdə Bakı bəlkə də daha çox şəhid verə bilərdi... Həkimlərimizin, ümumən səhiyyədə, xüsusən təcili yardım sahəsində çalışan tibb personalının o günlər xalqımıza, yaralılara göstərdiyi doğma münasibət və qürur duyduğumuz monolit birlik əsl vətənpərvərlik nümunəsi idi".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Tələbə şəhid

31 il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə xəbərdarlıq edilmədən Bakıya yeridilən sovet qoşunlarının qurşunlarına tuş gələn onlarla gəncdən biri də 27 yaşlı Elçin İmanov olmuşdur. Elçin 1967-ci il avqustun 12-də Şirvan şəhərində anadan olmuş, 10 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuşdur. Ailələri 1984-cü ildə Salyana köçdükdən sonra Elçin burada yaşamışdır.

Elçin İmanov 1986-cı ildə N.Nərimanov adına Tibb İnstitutunun (indi ATU) Stomotologiya fakültəsinə daxil olaraq həm ailəsinə, həm də müəllimlərinə unudulmaz tələbə adının sevincini yaşatmışdı. Ovaxtkı qayda-qanuna görə bəzi ali məktəblərdə hərbi kafedra olmadığından həmin ali təhsil ocağının tələbələri yaş həddində hərbi xidmətə çağırılırdı. Odur ki, Elçin birinci kursu başa vurduqdan sonra sovet ordusu sıralarına getməli oldu. Əvvəlcə Rusiyanın Volqoqrad vilayətində, sonra isə Almaniyada əsgəri xidmətini yerinə yetirdi. Elçin Vətən qarşısında borcunu ləyaqətlə başa vurub Bakıya qayıtdı. Yenidən tələbəlik illərinin qayğıları ilə yaşamalı oldu. Bu zaman qardaşı Fuad ovaxtkı Xalq Təsərrüfatı İnstitutunun tələbəsi idi. İki qardaş bir evdə kirayədə qalırdılar, kitabxanaya və ya şəhərə gəzməyə çıxanda da çox vaxt bir yerdə olurdular. Elə faciə baş verən gecə də Fuad qardaşının yanındaymış.

Fuad həmin günü belə xatırlayır: "Yanvarın 19-u idi, qış sessiyasının son imtahanından 5 almışdı. Çox sevincli idi, özünü səliqəyə saldı, "istəyirəm bir az havaya çıxım, gəzim, sessiyanın yorğunluğu canımdan çıxsın..." dedi. Odur ki, bir qədər dincəldikdən sonra birlikdə küçəyə çıxdıq.

Aman Allah! Bakı qaynar qazana bənzəyirdi. Torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə və ittifaq rəhbərliyinin buna laqeyd münasibətinə etiraz edən xalq haqq sözünü demək üçün məcbur olub müəssisələrdə işi dayandırır, küçə yürüşləri və mitinqlər keçirirdi. Elə biz şəhərə çıxan zaman da aksiyanın şahidi və iştirakçısı olduq. Dinc və əliyalın insanlar güllə yağışına tutulmuşdular. Yollar bağlı olduğundan həkimlər özlərini çox çətinliklə xəstəxana və poliklinikalara çatdırırdılar".



Fuad deyir ki, bu zaman şəhərin Biləcəri, XI Qızıl Ordu (indi 20 Yanvar), Salyan kazarması, Sabunçu qəsəbəsi, Əzizbəyov (indi Koroğlu) metrostansiyası istiqamətlərindən gecənin bağrını dələn, insanları vahiməyə salan avtomat və pulemyotlardan açılan atəş səsləri, tankların, tırtıllı texnikanın gurultusu aydın eşidilirdi. Halsız və köməksiz yaralıları küçələrdən yığıb xəstəxanalara çatdırmaq üçün tələbə yataqxanasından götürülərək avtobuslarla gətirilən gənclər keçmiş Çapayevlə (indi Təbriz) L.Şmidt (indi Rəşid Behbudov) küçələrinin kəsişməsində atəşə tutulurdular. Elə bu an gecənin qaranlığında sovet ordusu əsgərlərinin açdığı puleymot güllələrindən biri də Elçinə tuş gəldi.

Bu zaman qardası Fuad, tələbə dostları Səlim, Cavid, Əlipaşa onu təcili yardım maşını ilə 4 saylı xəstəxanaya çatdırsalar da, həkimlər gənci ölümün pəncəsindən xilas edə bilməyiblər. Elçin gecə saat 12 radələrində aldığı güllə yarasından keçinib. Qardaşı Fuad və tələbə dostları gecə vaxtı çətinliklə də olsa, onu Salyana gətirirlər. Səhəri gün bütün Salyan camaatı şəhid Elçin İmanovu böyük ehtiramla son mənzilə yola salır.

Tibb Universitetinin Stomotologiya fakültəsinin məzunu, Bakı şəhəri, "Lyuksin Plaza"nın diş həkimi Həmid Abdullayevin dediklərindən: "Universitetin əsas korpusunun qarşısında 20 Yanvar faciəsinin iştirakçısı olmuş tələbə-şəhidlərin şərəfinə ucaldılmış "Şəhidlər bulağı" kompleksini, o sıradan Elçinin əziz xatirəsini ehtiramla yad edər, abidə önünə tər qərənfillər düzərdik. İş yoldaşlarım Fariz Emçiyev, Mahirə Miriyeva, Sahibə Əsgərova və digərləri ilə hər il 20 Yanvarda həmin abidəni və Şəhidlər xiyabanında adları əbədiləşən şəhidlərimizi ziyarət edirik. Biz bu gün də o böyük vətənpərvər tələbə şəhidləri öz sıramızda görürük. Gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsi olan Elçin İmanovun təhsil aldığı fakültənin məzunu olduğumdan qürur duyuram. Allah-Təala cəmi şəhidlərimizin ruhunu behiştlik etsin!"

Tələbə şəhid Elçin İmanova Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə "20 Yanvar şəhidi" adı verilib. Salyan şəhərindəki yaşadığı küçə və təhsil aldığı Şirvan şəhər 10 saylı orta məktəb onun adını daşıyır. Salyan Tarix-Diyarşünaslıq muzeyində "Elçin guşəsi" yaradılıb. Tələbələrindən altı şəhidinin xatirəsini əbədiləşdirən Tibb Universiteti Elçinin şəklini guşədə birinci yerdə asıb. Onun qısa ömür yolu Rafiq Səməndərin "Şəhidlər" kitabında öz əksini tapıb. Şair Oktay Rza "Elçin - türbəsi", Ağacavad Əlizadə "Mənim əvəzimə", Malik Qədimov "Ağı - bayatılar" adlı şeirləri ni tələbə şəhidin xatirəsinə ithaf ediblər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



QANLI YANVAR -31 İL

# Qara günlər və arxada qalan illər...

İllər ötür, nəsillər dəyişir, xalqın həyatında baş verən hadisələr tarixə çevrilir. Unudulub gedəni olur, əbədi yaddaşlara yazılıb daim xatırlananları da. Xalqımızın qan yaddaşına həkk olunan hadisələrdən biri də 20 Yanvar faciəsidir. Doğrudur, biz o qanlı-qadalı günlərdə onun faciələrini yaşadıq. Lakin onu da bilirik ki, “torpaq, uğrunda ölən varsa Vətəndir”. Həmin hadisəyə ən dəqiq qiyməti Ulu Öndər Heydər Əliyev verib: “1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur”.



Artıq həmin Qara Yanvardan bizi aylar yox, illər ayırır. Ulu Öndərin dediyi kimi, həmin hadisənin tariximizdə tutduğu yeri zaman keçdikcə daha aydın dərk edirik. 20 Yanvar Azərbaycan tarixinin qanlı və şanlı səhifəsi adlandırılır. Aradan illər keçməsinə baxmayaraq, hər şey göz önündən sanki kino lenti kimi gəlib keçir: təlatümlü Bakı, gecənin qaranlığında işıq saçan güllələr, tankların və zirehli hərbi texnikaların uğultusu, küçələrə səpələnmiş cəsədlər, yaralılarla dolu xəstəxana palataları...

O gecənin tükürpədici səhnələri fotoobyektivin yaddaşına həkk olunaraq xalqın faciəsini, azadlıq mücadiləsinin tarixi məqamlarını zamandan-zamana daşıyır. Onlara diqqətlə baxanda kədər və hüznün içərisindən baş qaldıran ümid və inamı, yenilməzliyi, xalqın birlik və vəhdətini də görmək olur.

20 Yanvar artıq özünün bədii təcəssümünü də yaşayır və yeni nəsillərə fotoların “lal dilləri” ilə “danışır”. 20 Yanvar faciəsinə bir günün, yaxud bir ayın ərzində baş verən hadisə kimi baxmaq olmaz. O, öz başlanğıcını 1980-ci illərin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində cərəyan edən hadisələrdən götürmüşdü. Rəsmi Moskva tərəfindən erməni separatizminə rəvac və dəstək verilməsi, respublika rəhbərliyinin səriştəsizliyi, mütiliyi və milli mənafeyə zidd mövqeyi xalqı hiddətləndirmiş, güclü etiraz dalğası doğurmuşdu. Böyüklü-kiçikli hamı küçə və meydanlara axışırdı. Mitinqçilərin sıraları günbəgün genişlənir, paytaxtın baş meydanında xalqın azadlıq və müstəqillik istəyini əks etdirən şüar və plakatlar görünməyə başlayırdı. Beləliklə, əldən gedən torpağı uğrunda mübarizə tədricən ümumxalq hərəkatına çevrilirdi.

Sovet imperiyasının rəhbərliyi gündən-günə genişlənən və möhtəşəmliyi ilə artıq Kremlin sütunlu sarayını belə silkələməyə başlayan fasiləsiz mitinqləri dağıtmaq, xalq hərəkatını yatırmaq üçün hərəkətə keçdi. İlk dəfə olaraq paytaxt küçələrində tanklar və əsgərlər görünməyə başladı. Lakin xalq yenə meydandan çəkilmədi. Vəziyyəti belə görən mərkəzi rəhbərlik 1988-ci il dekabrın 4-dən 5-nə keçən gecə mitinqləri zor gücünə dağıtmaq əmri verdi.

Həmin vaxtlar Ermənistanda bir nəfər də azərbaycanlı qalmadığı halda, Bakıda ermənilər hələ də yerli xalqın imkansızlarını kirayənişin saxlayırdı. Əlbəttə, bu da milli zəmində təxribatlara şərait yaradırdı. Digər tərəfdən, ölkədə hakimiyyət böhranı özünün pik həddinə yaxınlaşırdı. Azərbaycanı cəzalandırmağı qarşısına məqsəd qoyanlar buna zəmin hazırlayır, Bakı 20 Yanvara addım-addım yaxınlaşırdı...

1990-cı ilin 20 Yanvarına keçən gecə sovet ordusunun təpədən-dırnağadək silahlanmış hərbi birləşmələri beş istiqamətdən Bakıya yeridildi. Küçələrdə bağıran tanklar və zirehli maşınlar taxta parçalarından qalanmış ocaqları - “barrikadaları” dağıdıb keçir, əsgərlər dinc əhaliyə atəş açır, heç kəsə aman vermirdilər. Hətta təcili tibbi yardım maşınları, evlər gülləyə tutulurdu.

Həmin gecə ən böyük qırğın indiki “20 Yanvar” dairəsi ərazisində törədildi. Ümumiyyətlə, cəza əməliyyatının ilk saatlarında yüzlərlə dinc sakin öldürüldü və yaralandı. Yanvarın 20-də səhər hava açılar-açılmaz küçələrə axışan paytaxt sakinləri “20 Yanvar” dairəsində və ona yaxın yerlərdə dəhşətli mənzərələrlə qarşılaşdılar: tankların əzib keçdiyi avtobuslar, yük və minik avtomobilləri, qar üzərindəki qan izləri... və s. Şəhərin mərkəzi küçə və meydanları tanklarla, avtomatlı hərbçilərlə dövrəyə alınmışdı...

O illərin fotoxronikasına baxmaqla bu gün həmin gecənin dəhşətlərini yenidən yaşayanların sayı azalsa da, tarix heç nəyi unutmur. Fotoşəkillərdə bu dəhşətli və qorxunc mənzərələr də əksini tapıb. Onlara baxarkən qanlı statistika bir daha yada düşür: öldürülənlər 146, yaralananlar 744, qanunsuz həbs olunanlar 841 nəfər.

O gecə yalnız “barrikada”da keşik çəkənlər güllələbaran edilmədi, yaralananlar arasında dinc Bakı sakinləri də az deyildi - 25 qadın və 20 uşaq vardı ki, onlardan bəziləri ömürlük şikəst oldu.

20 Yanvar faciəsi miqyasına, xarakterinə və mahiyyətinə görə keçmiş SSRİ rəhbərliyinin İkinci Dünya müharibəsindən sonra ölkə daxilində törətdiyi dəhşətli bir cinayət idi. Bu hadisələrdən bir müddət sonra - 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən Ulu Öndər Heydər Əliyev faciə barədə danışarkən deyirdi: “Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm sovet ittifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra sovetlər ittifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər”.

Sonradan 20 Yanvar hadisələrini araşdıran “Şit” təşkilatının müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatında deyilirdi: “Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur, xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşlər, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var. Atəş zamanı “Kalaşnikov” avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi”.

Sovet ordusunun (bəzi məlumatlara görə, Azərbaycan paytaxtına yeridilmiş qoşun kontingentinə 65 min hərbçi daxil edilmişdi) Bakıya hərbi təcavüzünün, cəza əməliyyatının ağır nəticələrini əks etdirən fotoşəkillərin böyük əksəriyyəti ağ-qara rəngdədir.

O zaman tək-tək adamlarda fotoaparat vardı. Hərbçilər sayı çox az olan fotomüxbirləri hadisə yerinə yaxın buraxmırdılar. Bununla belə, bəziləri həyatlarını təhlükə qarşısında qoyaraq kütləvi qırğının ayrı-ayrı epizodlarını fotoplyonkaya köçürə bildilər. Onların arasında öz peşə və vətəndaşlıq borclarını ləyaqətlə yerinə yetirən hazırkı AZƏRTAC-ın (o zamanlar Azərinform idi) fotomüxbirləri, əlbəttə, daha çox idi. Nə yaxşı ki, o dəhşətləri gizli yolla olsa da, o zaman qəhrəman, cəsur fotomüxbirlərimiz lentə alıblar. Təbii ki, onların bəziləri (ələ keçənləri) həmin dəhşətləri çəkdiklərinə görə hərbçilərin qəzəbinə tuş gəlir, qorxudulur və hətta fotoaparatları əllərindən alınıb, özləri də həbs edilirdilər. Bütün bunlara baxmayaraq, o günlərin fotosalnaməsini yaradanlar az olmadı. Bu sırada məşhur fotoqraf Rasim Sadıqovun adını da çəkməmək olmazdı.

Bu şəkil-sənədlər qanlı cinayəti törədənlərə qarşı bir ittiham aktı olaraq əsas sübut-dəlillər kimi də çox dəyərlidirlər. Çünki 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında aktuallığını bu gün də qoruyub saxlayırlar.

Xalqımız həmin gün ağır imtahana çəkildi. Şükürlər olsun ki, bu sınaqdan şərəflə çıxdıq. Faciə insanları birləşdirdi, xalqı bütövləşdirdi: ötən il 27 sentyabrda başlayan Vətən müharibəsindəki kimi. Xalq öz şəhidlərini son mənzilə çiyinləri üstündə apardı, görünməmiş izdihamla yola saldı. Ona tuşlanmış top-tüfəngə məhəl qoymadı, bir addımlığındakı təhlükədən qorxub çəkinmədi. Şəhidlərin dəfni nə qədər ağır səhnə olsa da, bir o qədər qürurverici idi.

Fotoşəkillər bizi 1990-cı ilin 22 yanvarına qaytarır. Bakının ən yüksək nöqtələrindən birində, “Dağüstü park” adlanan yerdə şəhidlər üçün məzarlar qazılırdı. Cənazələr indiki “Azadlıq” meydanına düzülmüşdü. Azadlıq meydanında iynə atsan yerə düşməzdi. Həmin anları əks etdirən fotolardan da göründüyü kimi, şəhidləri son mənzilə milyonlarla insan yola salırdı.

1990-cı ilin yanvarında Bakının xəritəsinə yeni bir ünvan yazıldı: Şəhidlər xiyabanı. Artıq bu məkan müqəddəs ziyarətgaha çevrilib. Çünki burada uyuyanlar həyatlarını Vətənin azadlığı naminə qurban verənlərdir. Onlar milyonlara fədakarlıq dərsi keçdilər.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: “Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır”.

Ulu Öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra qərarlar qəbul etmişdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilməkdədir. Dövlət başçısının Sərəncamına əsasən, 2007-ci ildə Şəhidlər xiyabanı vahid kompleks kimi yenidən qurulub.

Şəhidlər xiyabanı Azərbaycan xalqının 1990-cı ilin Qanlı Yanvarında yaşadığı böyük faciədən xəbər verir. Özündə ümummilli kədəri ilə yanaşı, rəşadət və fədakarlıq nişanələrini də yaşadır. Bu ünvan xalqın öz qəhrəman oğul və qızlarına böyük hörmət və ehtiramının ifadəsidir, Vətən tarixinin qanla yazılmış önəmli səhifəsi, əyani dərs vəsaitidir.

Hər il yanvarın 20-də Şəhidlər xiyabanında böyük izdiham yaşanır. Şəhid məzarları önündən yüz minlərlə insan ötüb-keçir. Gördüyünüz bu fotolar müxtəlif illərdə çəkilib. Ötüb keçən illər xalqın şəhidlərinə olan ehtiramını nəinki azaltmır, əksinə, 31 il əvvəl baş verənlərin mənası, bu xiyabanda əbədiyyətə qovuşanların gördüyü işlərin mahiyyəti zaman keçdikcə daha aydın görünür, layiq olduğu qiyməti alır.

Şəhidlərin uğrunda can verdikləri Azərbaycan, qanlı hadisələrin cərəyan etdiyi Bakı ötən illər ərzində büsbütün dəyişib. Xalqımız öz azadlıq arzusuna qovuşub, Azərbaycanın üçrəngli bayrağı bu gün dünya ölkələrinin bayraqları sırasında dalğalanır. Baxıb qürur duyur, müstəqil dövlətin vətəndaşı olmağımızla fəxr edirik.

Şəhid qanının ən dəqiq qiymətini də Ulu Öndər Heydər Əliyev verib: “O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır”.

1990-cı ilin Yanvarında üçrəngli bayrağımızın yüksəlməsi də, müstəqillik də bir xəyal, lakin eyni zamanda xalqımızın arzusu idi. Şəhidlərimizin axan qanı, xalqın verdiyi qurbanlar hədər getmədi, xəyal və arzular həqiqət oldu. Bu gün Şəhidlər xiyabanı and və ziyarət yerimizdir!

***Rəhman SALMANLI,***
***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***




## Tariximizin qanlı səhifələri fotoyaddaşda







# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

**44 gün davam edən Vətən müharibəsi müzəffər Azərbaycan Ordusunun qalibiyyəti ilə başa çatdı. Ermənistan silahlı qüvvələri otuz ilə yaxın işğal altında saxladıqları Azərbaycan torpaqlarında layiq olduqları aqibəti yaşadılar, məğlubiyyətə uğrayaraq geri çəkilməli oldular. Erməni işğalçılar darmadağın edildi. Vətən torpaqları azad olundu. Doğma xalqına böyük qələbə sevinci yaşadan Azərbaycan Ordusu qəhrəmanlıq dastanı yazdı.**



## Qazilərimizə dövlət qayğısı gücləndirilir

Əlbəttə, müharibələr qansız-qadasız olmur. Vətən müharibəsində də neçə-neçə igid Azərbaycan oğlu şəhid oldu. Hələ də müalicəsi davam edən qazilərimiz var. Onlar vətən torpaqlarının mənfur düşmənin işğalından qurtulması üçün öz sağlamlıqlarından keçiblər. Bu gün qəhrəman qazilərimizin müalicəsinə dövlət tərəfindən xüsusi diqqət göstərilir.

Prezident İlham Əliyev bütün çıxışlarında şəhid ailələrinin və müharibə qazilərinin problemlərinin daim diqqət mərkəzində saxlanılacağını vurğulayır. Qeyd edək ki, hələ müharibə davam edərkən - sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşdülər. Dövlət başçısı görüşdəki çıxışında döyüşlərdə müxtəlif xəsarətlər alan, yaralanan döyüşçüləri gənc yaşlarında böyük qəhrəmanlıq, şücaət göstərdikləri, Vətən uğrunda şərəflə vuruşub öz adlarını Azərbaycan tarixinə yazdırdıqları üçün təbrik etdi. Prezident İlham Əliyev bildirdi: "Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər".

O zaman ölkə rəhbəri döyüşlərdə yaralanmış, xəstəxanalarda, hərbi hospitallarda müalicə alan hər bir insanın xüsusi qayğıya layiq olduğunu bildirmişdi: "Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq", - demişdi.

Artıq ümidlərimiz, arzularımız həqiqətə çevrilib. Bu gün qürurla Azərbaycanın Vətən müharibəsində nail olduğu böyük zəfərdən danışırıq. Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirildi. Dövlət başçısı müşavirədə dedi: "Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi".

Prezident İlham Əliyev müşavirədə 2021-ci ildə də Azərbaycanda böyük tədbirlər həyata keçiriləcəyini diqqətə çatdırdı. Bütün sahələrdə uğurlara, inkişafa nail olmaq üçün məqsədyönlü işlərin planlaşdırıldığını söylədi.

Vətən müharibəsində canından keçmiş şəhidlərimizin ailələrinin problemlərinin həlli üçün dövlət tərəfindən mühüm addımlar atılmaqda davam edəcək. Dövlətimizin rəhbəri bildirdi ki, məcburi köçkün və qaçqın ailələri üçün tikilmiş yeni mənzillər bundan sonra şəhid ailələrinə veriləcək.

Ölkə rəhbəri İlham Əliyev yerli icra hakimiyyətləri yanında Vətən müharibəsi iştirakçıları və şəhid ailələrilə işin təşkil edilməsilə bağlı mühüm fərman imzalayıb. Bu da keçmiş döyüşçülərə və onların ailələrinə göstərilən diqqətin təzahürüdür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət sayəsində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, veteranlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Prezidentin 8 dekabr 2020-ci il tarixli Fərmanı əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda yaralananların və şəhid ailələrinin sosial təminatına dəstək məqsədilə yaradılan "YAŞAT" Fondu yaradılıb. "YAŞAT" Fondu şəhid ailələri və müharibə əlillərinə göstərilən diqqətin, qayğının növbəti əyani sübutudur.

Müharibədə sağlamlığını itirən döyüşçülərimizə, onların və şəhidlərimizin ailələrinə ana şəfqəti ilə yanaşan ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva hələ Vətən müharibəsinin davam etdiyi günlərdə müsahibəsində demişdi: "Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur, Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi".

Azərbaycan əsgəri, zabiti xilaskarlıq missiyasını yerinə yetirdi. Düşmən tərəfindən on illər boyu dağıdılmış, talan edilmiş, viranə qoyulmuş yurd yerlərimiz artıq yenidən abad ediləcəkləri, əsl sahiblərinin geri dönəcəkləri günləri gözləyir. Azərbaycanın zəfər ilə başa çatan müharibənin ağrıları isə hələ sağalmayıb. Müharibədə yaralanan qazilərimizin də müalicəsi davam edir. Azərbaycan xalqının sevgisi, Azərbaycan dövlətinin diqqəti və qayğısı ilə əhatə olunmaları onların yaralarına ən böyük məlhəmdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Ölümsüzlüyə qovuşanlar

## Şərəfli ömür yolu

### Övladının ad günündə şəhid olan xüsusi təyinatlı komandir Azər Mikayılov son anda "Qarabağ Azərbaycandır!" deyib

**Vətən müharibəsində Füzuli, Hadrut və Cəbrayıl istiqamətində gedən döyüşlərin həlledici olması danılmazdır. Müzəffər Ordumuzun 30 illik yurd ayrılığına son qoyan Zəfərin əsası məhz elə həmin istiqamətdə dəmir-beton sədləri qırmaqdan başladı. Bu yolda şücaət göstərib düşmənə ağır zərbələr endirərək onları əzəli, tarixi torpaqlarımızdan vurub çıxaran igidlərimizin haqqında bu gün şərəflə söz açılır, qazilərimizə şəfa, şəhidlərimizə rəhmət diləyirik.**



Adını fəxr və qürurla çəkdiyimiz igid zabitlərimizdən biri də Azər Əmrah oğlu Mikayılovdur. O, 1980-ci il avqustun 1-də Kəlbəcər rayonunun Quzeyçiskin kəndində ziyalı bir ailədə dünyaya göz açmışdı. Uşaqlıq illərindən xalqımıza qarşı ermənilərin çirkin əməllərini görən Azər Mikayılov gələcək həyat yolunu vətənin müdafiəsinə həsr etmək qərarına gəlir və bunun üçün hərb sənətini seçir. Orta məktəbi bitirərək 1998-2002-ci illərdə Bakı Alı Hərbi Məktəbində təhsil alır. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində təhsilini davam etdirir, leytenant hərbi rütbəsi alaraq vətənin müdafiəsi üçün Azərbaycan Silahlı Qüvvələrinin sıralarına daxil olur.

Hərbi fəaliyyətə Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusu daxilində hərbi hissənin motoatıcı tağımının komandiri kimi başlayır. Qısa müddətdən sonra kəşfiyyat bölüyünə tağım komandiri təyin edilir. Hərbi sirlərə mükəmməl yiyələnərək, əsl kəşfiyyatçi kimi formalaşaraq bölük komandiri, hərbi hissənin kəşfiyyat rəisi, xüsusi təyinatlı taborun qərargah rəisinin əməliyyat üzrə baş köməkçisi, tabor komandirinin müavini və komandiri vəzifələrinə irəli çəkilir.

Bu dövr ərzində Azər Mikayılovun Naxçıvan Muxtar Respublikasının müdafiəsində böyük xidmətləri olur. Onun rəhbərliyi ilə ermənilərin nəzarətindəki bir neçə strateji əhəmiyyətli post azad edilərək sərhəd müdafiə sistemi daha da möhkəmləndirilir. Məhz Azər Mikayılovun misilsiz xidmətlərinin nəticəsidir ki, həmin postlardan biri bu gün onun adını daşıyır.

Azər Mikayılov 2016-cı ilin Aprel döyüşlərinə qatılaraq Lələtəpə yüksəkliyinin azad olunmasinda da fəal iştirak edir.

O, Vətən müharibəsindən bir neçə ay əvvəl Naxçıvandan Beyləqan-Füzuli istiqamətinə, "N" saylı xüsusi təyinatlı hərbi hissəyə göndərilir. Son fəaliyyəti dövründə hərbi hissənin qərargah rəisi və komandiri olur.

27 sentyabr 2020-ci ildən başlayan Vətən müharibəsi zamanı Azər Mikayılov özü və tabeliyində olan şəxsi heyətlə birgə Füzuli-Cəbrayıl-Hadrut istiqamətində gedən ən ağır əməliyyatlara qatılaraq döyüş əməliyyatlarına başçılıq edir. Böyük qəhrəmanlıq nümunəsi göstərən komandirin rəhbərlik etdiyi hərbi qüvvələr bir çox yaşayış məntəqələrinin azad olunmasında, yüzlərlə erməni işğalçılarının məhv edilməsində fədakarlıq nümunəsi göstərir.

12 oktyabr 2020-ci ildə Füzuli-Cəbrayıl istiqamətində gedən ağır döyüşlərdə düşmənə sarsıdıcı zərbə endirərkən qəhrəmancasına şəhid olur. Azər Mikayilov xüsusi hərbi keyfiyyətlərinə, müxtəlif dövrlərdə iştirak etdiyi əməliyyatlarda göstərdiyi sücaətə və nümunəvi xidmətlərinə görə, III-II-I dərəcəli "Qüsursuz xidmətə görə", Azərbaycan Silahlı Qüvvələrinin 90-95 və 100 illik yubiley medalları ilə təltif edilib ki, bu da onun qəhrəmanlığının bariz nümunəsidir.

Azər Mikayılov ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamına əsasən, "Qarabağ" ordeninə, "Vətən uğrunda" və "Füzulinin azad olunması uğrunda" medallarına layiq görülüb. Yerin behişt olsun, komandir!

Şərəfli ömür yolu keçən, övladının ad günündə şəhid olan xüsusi təyinatlı komandir Azər Mikayılov son anda "Qarabağ Azərbaycandır!" sözlərini deyib və həyata vida edib.

*M.SADIQOV,*
*"Azərbaycan"*

● Zəfər zirvəsini fəth edənlər

## Qazaxdan parlayan üç ulduz...

**Bəli, bu gün hər bir ata-ananın, qardaş-bacının, nənə-babanın dilinin əzbəri olan bir fikir vardı: "İgid əsgər, möhkəm dayan". Əslində, bu çağırışı hələ heç "Əlifba" kitabını açmayan, bağçayaşlı balalarımız da elə şirin-şirin deyir ki...**





Azərbaycan torpaqlarını 30 ilə yaxındır ki, tapdaqda, əsarətdə saxlayan erməni daşnak quldurları həmin "İgid əsgər, möhkəm dayan" misrasındakı vətənpərvərlikdən də qorxurlar! Ona görə də daim özlərini basılmaz saymış, ərazilərimizi işğal etmiş, bizi isə vandalizm aktına məruz qoymuş hayları birliyimiz, hər kəlməmiz belə vahiməyə saldı! Bu günlərin sevincini xalqımız illərdir ki, gözləyirdi.

İşğalçıların bəd niyyətləri artıq "çanağı öz başlarında çatlatdı". İşğalda saxladıqları torpaqlarımızdan qovuldular. Necə deyərlər, "iti qovan kimi" onları yurd yerlərimizdən çıxartdı rəşadətli tarix yazan Milli Ordumuz: "Əlbəttə, "Böyük Ermənistan" xülyası ilə, havadarlarına yarınıb-yaltaqlanan ermənilər doxsanıncı illərdə, müstəqilliyimizi yenicə bərpa etdiyimiz, hərtərəfli zəif olduğumuz bir məqamda nəinki Qarabağımıza, hətta ondan nə qədər uzaq olan Naxçıvanın Kərki, eləcə də doğulub boya-başa çatdığım Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli, Barxudarlı, Sofulu, Bağanis Ayrım və Qızıl Hacılı kəndlərini də işğala məruz qoydu. Bu o vaxtlar idi ki, nə indiki kimi inkişafımız, nə də vahid komandanlığa tabe olan, NATO standartları ilə formalaşan Milli Ordumuz var idi..."

Bu fikirlərin müəllifi - Qazax şəhəri, 2 nömrəli musiqi məktəbinin müəllimi Günel Ələkbərli deyir ki, artıq o ağır dövrdən bizi 30 ilə yaxın zaman məsafəsi ayırır. Bu gün isə rəşadətli Milli Ordumuz artıq Qarabağımızı işğaldan azad edib. Buna görə də 44 günlük Vətən müharibəsində uduzan Ermənistan noyabrın 10-da təslimçi sülh müqaviləsinə imza atmağa məcbur oldu: "Düşmən öz qorxaqlığını və acizliyini ört-basdır etmək üçün mülki insanları, cəbhədən uzaq yaşayış məntəqələrimizi, böyüklü-kiçikli xalqımızı ağır artilleriyalardan atəşə tuturdu. Guya ki, bununla bizi qorxutmaq, qisas almaq istəyirdi. Amma uduzdu: biz ölərik, həm də öldürərik! Bu, bizim şərəf və ləyaqət, haqq-ədalət savaşımızdır! Öz torpaqlarımızda şəhidlik alın yazımızdır!

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev erməni vandallarının acizliyini, insanlıqdan uzaq hərəkətlərini dünya xalqlarına çatdırarkən söylədiklərini xatırlayıram: "Ermənistan mülki şəxslərə hücum etməklə Azərbaycanda xaos və panika yaratmaq istəyirdi. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilmədi. İtkilərimiz olsa da, bu, bizim iradəmizi sındırmadı. Əksinə, bizi daha güclü etdi..."

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu da Azərbaycan Ordusunun haqq savaşında qələbə çalacağına əminliyini öncədən duyaraq belə ifadə edirdi: "Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq. Cənab Prezidentimizin təlimatı, tapşırığı ilə gəlmişəm... Prezidentimizin bizə bir tapşırığı var: bu prosesdə qardaş Azərbaycanı tək qoymayın və davamlı olaraq oraya - Bakıya gedin və birlikdə hərəkət edin..."

Bundan necə qürur hissi keçirməyəsən ki? Ermənistanın baş naziri N.Paşinyan isə dilənmədiyi, zəng edib bezdirmədiyi dövlət başçısı qalmadı. Bəli, dünya dəyişir, haqqımızı tanımayanlar erməni fitnəkarlığını artıq dərk edir. Çünki haqq bizimlədir. Regionda güc balansı dəyişdikcə Azərbaycanın haqq işinə mane olmaq istəyənlər belə haqsızlıqlarının fərqinə varmağa başlayır. ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Fransanın sülh danışıqlarında vasitəçilik missiyası daşımasına baxmayaraq, işğalçı Ermənistanın mövqeyini dəstəkləməsi, senatının mövcud olmayan "DQR"in müstəqilliyini tanıyan sənəd qəbul etməsi isə, sadəcə, gülünc və Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, quru, boş, mənasız, səmərəsiz kağız parçasından savayı bir şey deyil. Günel müəllimə söhbət əsnasında bildirdi ki, mənim də xalam oğlanları Aqşinlə Ayxan Quşçiyev qardaşları, Alı Alıyev və Ruslan Məmmədov... kimi qazaxlı doğmalarım düşmənlə savaşda öz sözlərini deyiblər: " Mən musiqi müəllimi kimi vətənpərvərlik hissləri ilə yazılan şeirlərin bir neçəsinə marş və mahnı yazılmasına çalışıram. Düşünürəm ki, bu gün hər birimiz özümüzü Vətənə xidmətdə görməliyik. İnanırdım ki, tezliklə, bizə nəfəs qədər yaxın olan Şuşamızda, Laçın, Kəlbəcər və Ağdamımızda, illərlə quldur yuvasına dönmüş Xankəndimizdə oxunacaq mahnılarımız da döyüşkən ordumuza bir töhfə olacaq!

Yeri gəlmişkən onu deyim ki, Ağstafa rayonunun Aşağı Kəsəmən kəndində yaşayan Hüseynovlar ailəsindən 3 qardaş - Habil, Qabil, Ramil ön cəbhədə xidmət edir. Hər iki valideynlərini itirən qardaşlar döyüş başlayandan cəbhədədirlər. Ata-anasız böyüyən qardaşlar müharibənin ilk günlərindən könüllü olaraq ön cəbhəyə yollandılar. Şükür ki, onlar Qarabağda müharibəni qələbə ilə başa vuran əsgər oğullarımızın sıralarındadırlar. Bu da Tanrının o ailəyə bəxşişidir. Qardaşlar dəfələrlə ölümlə üz-üzə qalsalar da, Şuşaya bayraq sancanların arasındadırlar".

Budur Azərbaycan oğullarının Vətən sevgisi. Budur Ali Baş Komandanın bircə əmrinə müntəzir olan Müzəffər Ordumuzun vətənpərvərlik duyğuları ilə silahlanması. Qarabağ Azərbaycandır! Azərbaycan qalibdir!

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Vətən sizə oğul deyib...

## Siz haqq savaşının qaliblərisiniz

### Üçrəngli bayrağımızın Şuşada dalğalanması, oradakı məsciddən verilən azan səsi hər birimizi qürurlandırır

**"Analar və oğullar" mövzusunda ədiblərimiz xeyli əsərlər qələmə almışlar. Hələ orta məktəb illərində bir hekayə oxumuşdum. Çox təsirli idi. Məzmunu illər keçsə də, yaddaşımdan silinməyəcək. Müharibədən bəhs edirdi. O zaman analarla oğulların hisslərinin bir-birinə qırılmaz tellərlə bağlı olduğuna, təbii ki, indiki kimi inanmırdım. Sən demə, arada ilahi bir bağlılıq var imiş. Övladın başı ağrıyanda ananın ürəyi əsir, bədəni titrəyirmiş.**



Oğlum, ciyərparam Məhəmmədə yazdığım məktubun ilk cümləsində əlim əsmişdi. Elə bilmişdim ki, həyacandandır. Hələ sən dünyaya gəlməmişdən arzulamışdıq ki, oğlumuz olsun, əsgərliyə getsin, ona məktub yazaq, cavab alaq... Bundan müqəddəs arzu ola bilərdimi?

Arzumuza yetişdik.Oğlumuzun Qarabağda Qələbə soraqlı məktubunu alanda sevincdən, fərəhdən göz yaşlarımı saxlaya bilmədim. O, təhsilini yarımçıq qoyub Vətən müharibəsinə yollanmışdı. Bu yol şərəfli olduğu qədər də təhlükəli, ağır idi. Yağı düşmən qorxaq olsa da, havadarlarına güvənən, hiyləgərdir. Ata-babalarımızın, nəslimizin dünyaya göz açdığı Qarabağımızı, ağevli, ağgüllü, ağ imarətli Ağdamımızı 28 il idi ki, düşmən əsarətdə saxlayırdı. Daş üstündə daş qalmamışdı. Hələ bizdən torpaq, hüquq davası da edirdilər bu yaramazlar.

Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin "bir qarış torpağımız da düşmənə qalmayacaq, onları, silahlı quldurları torpaqlarımızdan iti qovan kimi qovacağıq" deməsi biz didərginlərin ürəyinə bulaq suyu kimi çiləndi. Fəxr edirik ki, belə cəsarətli, qətiyyətli, güclü, mərdanə Prezidentimiz, Ali Baş Komandanımız var!

Əsgər oğlum 1996-cı ilin 28 iyulunda dünyaya göz açıb. Həmin gün Ağdamın işğalından 3 il keçirdi. Ağdamda, sonralar "ruhlar şəhəri" kimi tarixə düşən yurdumuzda doğulmasa da, ata-babalarımızın müqəddəs məzarlarını işğaldan azad etmək kimi şərəfli bir vəzifə onun da üzərinə düşdü.

Yadımdan çıxmaz, Bərdədəki 2 nömrəli köçkün orta məktəbini 2012-ci ildə bitirib Bakı Nəqliyyat və Rabitə Kollecinə qəbul olanda elə sevinmişdim ki, indiki kimi, o vaxt da ağlamışdım. Atan Namiqə, qardaşın Əsgərə söz vermişdin ki, Qarabağı azad edən oğullardan biri olacaqsan. İnamla, qətiyyətlə demişdin bu sözləri...Elə bilmişdim ki, Bakıya oxumağa yox, Qarabağa düşmənlə döyüşməyə gedirsən.

Min şükür, bu gün qürur hissi ilə bu məktubu əsgər balama - Əliyev Məhəmməd Namiq oğluna yazıram. Anaların, ataların arzusu həyata keçəndə özlərini xoşbəxt hiss edirlər. Siz də bizi bu Qələbənizlə nəinki sevindirdiniz, həm də xoşbəxt etdiniz. Ağdamımız, ata-baba yurdumuz, ümumiyyətlə, Qarabağımız düşmən əsarətindən qurtuldu!

Mənim, eləcə də təhsil aldığın kollecin müəlllimlərinin, xüsusən də Kəmalə Əliyevanın, qardaşın Əsgərin də çoxlu-çoxlu salamını silahdaşlarına yetir, əziz oğlum. Müəllimlərin bizi unutmur, belə igid, vətənpərvər olduğun üçün bizə təşəkkür edirlər.

Dəfələrlə döyüşlərdə yaralanıb hospitalllarda müalicə aldığını bizə bildirməsən də, hamısını ana ürəyi hiss eləmişdi. Təkcə sənə yox, düşmən qarşısında Vətənə sipər olan bütün əsgər və komandirlərimizin Qələbə sevinci yaşamalarını dilədik. Heç bilmirdik ki, sən Füzulinin, Cəbrayılın, Xocavəndin, Hadrutun, Zəngilanın, Qubadlının da azad olunmasında iştirak edisən. Demədin, yazmadın, bildirmədin Şuşaya bayrağımız sancılanadək. "Hərbi sirdir, deyə bilmərəm" cümlən bəsimiz oldu bu aylar ərzində. Sizlər kimi cəsur, qorxmaz, vətənpərvər oğullarla Qarabağımız azad edilib! Bundan böyük zəfər bilmirəm. Bildiyim odur ki, bu gün də dağların qoynundasan - Kəlbəcərdə. Bu yüksəklik sizin kimi Vətən oğullarına yaraşır! Sevinirəm ki, düşmən üzərində çalınan Qələbədə mənim də oğlumun payı oldu! Tanrı sizi qorusun! Kəlbəcər Azərbaycanımızın sərvət yatağıdır, xəzinədir. Onu düşməndən diz çökdürüb almaq Vətənə əsl oğulluq deməkdir. Arzumuzu yerinə yetirənlər, sizə zəfər yaraşır!

*Naibə ƏLİYEVA,*
*Ağdam rayonunun Bənövşələr qəsəbəsinin sakini*

◆ Qarabağ dirçəliş yolundadır



# Natəvan, Üzeyir bəy, Bülbül öz evlərinə qayıtdılar





*Əvvəli 1-ci səh.*

Və tamahkarlıqla bu mədəniyyət nümunələrini əritmək, ondan qazanc əldə etmək iştahasına düşmüşdülər. Amma bu iyrənc əməllərinə çata bilməmişdilər və yaralı büstlərimiz Ulu Öndər Heydər Əliyev tərəfindən mənfurlardan xilas edilərək, bir gün mütləq Şuşaya qaytarılacağı qətiyyəti ilə Bakıya gətirilmiş və müvəqqəti olaraq İncəsənət Muzeyinin həyətində yerləşdirilmişdi...

Təbii ki, o zaman biz "güllələnmiş heykəllər"in acı taleyi ilə bağlı faktları detallı şəkildə bilmirdik və illər sonra bu barədə müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşaya qalibiyyət səfəri zamanı öyrənəcəkdik...

Amma bu faktları bilməsək belə əmin idik ki, bir gün mütləq Şuşa azad ediləcək, bütün şuşalılar kimi, Natəvan, Üzeyir bəy və Bülbül də öz evlərinə qayıdacaqlar...

## Qəlbimizin və qələbəmizin büllur qalası - Şuşa

Şuşa hər zaman Azərbaycan xalqının qəlbində büllurdan taxt ucaltmış alınmaz qala olub. Və bu əsrarəngiz diyarda yaşayıb-yaşamamasından asılı olmayaraq, hər bir azərbaycanlı füsunkar şəhəri özünün mənəvi qibləsi hesab edib, kədərinə qüssələnib, sevincinə ürəkdən şərik olub, Şuşası ilə fəxr edib.

Bu xanzadə şəhər təkcə təbii gözəlliyi ilə deyil, kübar cəmiyyəti, mədəni mühiti, yüksək təhsili ilə də hər zaman fərqlənib. Yetirdiyi dahiləri, ziyalıları, şairləri, yazıçıları, musiqiçiləri, bəstəkarları saymaqla bitirmək olmaz...

Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Firudin bəy Köçərli, Üzeyir bəy Hacıbəyli, Mir Mövsüm Nəvvab, Süleyman Ələsgərov, Cabbar Qaryağdıoğlu, Xan əmi, Bülbül, Əhməd Ağoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Lətif Kərimov, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov və daha neçə-neçə məşhur şəxslər Şuşanın yetirmələridir...

Müstəqil Azərbaycanın memarı Heydər Əliyevin abidələr şəhəri adlandırdığı Şuşada 300 tarixi abidə, 550 qədim yaşayış binası, 870 metr uzunluğunda bərpa olunmuş qala divarları vardı. Burada milli abidələrin çoxluğu, onların rəngarənglik baxımından fərqlənməsi haqlı olaraq şəhərin mədəniyyətimizin ən zəngin beşiyi adlandırılmasının səbəbidir. Şuşada hər bir ev, küçə, möhtəşəm qala divarları, məscidlər, qəddqamətli minarələr, əzəmətli qəsrlərin qalıqları keçmişimizdən xəbər verir.

Təəssüf ki, Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində digər ərazilərdə olduğu kimi, Şuşada da tarixi, mədəni, dini abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri, Vaqifin məqbərəsi, şəhərdə yerləşən qədim məscidlər və s. mədəni, tarixi, dini tikililər var.

Mənfur ermənilər Şuşada törətdikləri bütün bu vandallıq aktları ilə orada yüz illərdir xalqımız tərəfindən formalaşmış maddi-mədəni irsimizi, tarixi izlərimizi silmək kimi məkrli niyyət güdürdülər...

Amma unudurdular ki, qəhrəman Azərbaycan xalqı heç zaman Şuşasızlıqla, Qarabağda at oynatmaq istəyən düşmənin azğınlığı ilə barışmayacaq...

Və barışmadı da...

Sentyabrın 27-də Qarabağ uğrunda Zəfər yürüşünə çıxmış qəhrəman oğullarımıza cəmi 44 gün bəs etdi ki, azğın düşməni qarşısında diz çökdürsün.

Müzəffər Azərbaycan Ordusunun azman oğulları işğal altındakı torpaqlarımızı qarış-qarış yağı tapdağından xilas etdi. Şuşanın azad edilməsi uğrunda isə əsl ölüm-dirim savaşına atılan igidlərimiz dünya tarixində bərabərinə rast gəlinməmiş şücaət göstərdilər. İndiyə qədər yalnız əfsanələrdən, dastanlardan aşina olduğumuz hünər sərgiləyərək, doğma Şuşanı azadlığa qovuşdurdular. Bu müqəddəs vəzifə yolunda onları nə uca dağlar, nə keçilməz meşələr, nə də aşılmaz sıldırımlar dayandıra bildi. Yalın əllə mənfurların nəfəsini kəsdilər, biləklərinin haqqı ilə nahaqqa qalib gəldilər, Şuşanın qəlbindəki kədəri dağıdıb, ona sevinc bəxş etdilər...

## Şuşa azadlığından sonra ikinci bayramını yaşadı

2021-ci ilin 14 yanvarında isə Şuşa azadlığından sonra ikinci bayramını yaşadı, sevinclə əzizlərinə qucaq açdı... Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşaya qalibiyyət səfəri etməsi və məhz bu doğma diyara Şuşanın əbədi sakinləri - qələbəmizin rəmzi Natəvanın, Üzeyir bəyin və Bülbülün büstləri ilə qayıtmasından xoşbəxtlik duydu, sanki düz 39 il əvvələ qayıtdı, elə o zamankı kimi bəxtəvər oldu...

Şuşaya Qələbə yolu ilə gələn müzəffər sərkərdə İlham Əliyev dahi şəxsiyyətlərin büstlərinin darmadağın edilmiş yerlərinə baxaraq düşmənin mənfurluğunu, mədəniyyətimizə qarşı vəhşilik törətmələrini bir daha hiddətlə vurğuladı. Dövlət başçısı məlumat verdi ki, düz 39 il əvvəl, 1982-ci ildə Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır: "Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu".

Yuxarıda da bəhs etdiyimiz kimi, ermənilər bu büstləri güllələbaran etməklə kifayətlənməmişdilər və onlarla bağlı daha iyrənc planlar qurmuşdular. Onların bu mənfur niyyətləri barədə faktları da Prezident İlham Əliyev bütün dünyaya bəyan edərək məlumat verdi ki, ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar: "Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi".

Prezident İlham Əliyev onu da diqqətə çatdırdı ki, müxtəlif vaxtlarda bəzi insanlar ölkə başçımıza müraciət ediblər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun: "Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq".

Bəli, tarixi ədalətin bərpa olunması Qarabağımızı azadlığa qovuşdurmaqla yanaşı, tarixi abidələrimizi də erməni vandallığından xilas etdi. Eləcə də illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstləri öz doğma yerlərinə qovuşdu, onların da ruhları şad oldu. Dahi şəxsiyyətlərimizin büstlərinin Şuşaya öz əzəli vətənlərinə qaytarılması qələbəmizin daha bir sarsılmaz rəmzinə çevrildi. Artıq bu "yaralı" heykəllər əbədiyyətədək Şuşada, öz evlərində qalacaqlar və bu şəhərə səfər edən hər kəsə erməni vəhşiliyini anladacaqlar. Üzərlərindəki namərd gülləsinin izləri bütün dünyaya bəyan edəcək ki, kim mədəniyyət düşmənidir, kim də mədəniyyət sahibidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qafqazın incisi

## Ermənilərin dağıtdığı Şuşa məscidləri bərpa olunacaq





İyirmi səkkiz illik həsrət bitib. İndi Azərbaycanın bu qədim və gözəl şəhəri azaddır. Artıq Şuşa şəhərində Azərbaycan bayrağı dalğalanır. Prezident İlham Əliyevin dediyi kimi: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir".

2020-ci ilin 8 noyabrı - Müzəffər Azərbaycan Ordusu ulu yurdun qədim şəhərlərindən biri, Qarabağımızın baş tacı Şuşanı erməni işğalçılarından azad etdi. Məhz alınmaz qala sayılan bu şəhərin işğaldan xilasi ilə düşmənin İkinci Qarabağ müharibəsində məğlub olduğunu etiraf etməkdən başqa əlacı qalmadı.

Azərbaycan tarixində, Azərbaycan mədəniyyətində Şuşanın özünəməxsus yeri var. Bünövrəsi 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulan, bu səbəbdən ilk çağlarda Şuşa ilə yanaşı xanın şərəfinə Pənahabad da adlandırılan bu şəhər tarixin keşməkeşlərindən keçib.

Erməni işğalına məruz qalana qədər - 1992-ci il mayın 8-dək Şuşanın Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə adlandırılan 17 məhəlləsi mövcud idi.

Azərbaycanlıların tarixi izlərini silmək üçün hər vasitəyə əl atan erməni vandalları 600-ə yaxın tarixi memarlıq abidəsini, həmçinin Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etdilər. 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, eləcə də Şuşa Tarix Muzeyini, Azərbaycan Xalça Muzeyinin filialını və Xalq Tətbiqi Sənəti Muzeyini, Qarabağ Dövlət Tarix Muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtdılar, nadir sənət incilərini taladılar, məhv etdilər. Şəhərin Tarix muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, xatirə muzeylərinin fondları qarət olundu.

Təəssüf ki, erməni vandalları otuz ilə yaxın işğal altında saxladıqları bütün ərazilərimizdə tarixi-mədəni, dini abidələrimizi, ziyarətgahlarımızı məhv etdilər. Həmin yerlərdə erməni zavalına məruz qalmayan heç bir abidəmiz yoxdur. Onların əksəriyyətini dağıtdılar, yandırdılar. Təmir adı altında bir çoxunu dəyişdirməyə, erməniləşdirməyə çalışdılar. Təkcə Şuşada 67 məscid dağıdılıb və ya yararsız hala salınıb.

Sevincimiz və təsəllimiz isə odur ki, artıq Ermənistan silahlı qüvvələri məğlub olmuş, işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinə başlanmışdır. Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoymuşdur.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərinə gediblər. Onlar Şuşada bir sıra tarixi məscidlərdə olublar.

Prezident İlham Əliyevin ailə üzvləri ilə birgə Şuşa şəhərində ziyarət etdiyi müqəddəs yerlərdən biri də Saatlı məscidi olub. Dövlət başçısı deyib: "Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik".

Dövlət başçısı bildirib ki, ziyarət etdiyi Ağdam cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verilib. Artıq mütəxəssislər oraya ezam edilib və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcək. Şuşa şəhərinin məscidləri də bərpa ediləcək. Prezident İlham Əliyev vurğulayıb ki, minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir. Ermənistanın daim müsəlman ölkələri ilə münasibətlər qurmağa, bəzi ölkələrlə münasibətləri inkişaf etdirməyə, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə verməyə çalışdığını diqqətə çatdıran dövlət başçısı bunların yalan olduğunu qeyd edib. Bildirib ki, əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi müsəlman məscidlərini nə günə salıb. Prezident İlham Əliyev deyib: "Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman ölkələri ilə dost ola bilər? Qoy onların xalqları buna cavab versinlər".

Azərbaycan dövləti, Azərbaycan xalqı humanistdir və bütün dinlərə hər zaman hörmətlə yanaşıb. Prezident İlham Əliyev vurğulayıb ki, biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Dövlət başçısı bildirib ki, bütün dinlərin abidələri bizdə qorunur - kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Diqqəti ermənilərin əməllərinə çəkən Prezident İlham Əliyev deyib: "Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi".

Təcavüzkar ermənilər işğal dövründə azərbaycanlılar üçün müqəddəs olan Yuxarı Gövhər ağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdirdilər. Ermənilərin hər zamankı kimi bu məsələdə də öz mənafelərinə xidmət etdikləri isə göz önündədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Dövlət başçısı bir ölkənin şirkətinin bu çirkin əməllərdə onlarla şərik olduğuna təəssüfünü də ifadə edib: "Əlbəttə ki, Yuxarı Gövhər ağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb".

Dövlət başçısı Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verildiyini bildirib. Erməni təcavüzkarlarının otuz ilə yaxın həyata keçirdikləri bədnam əməllər nəticəsiz qalıb. Şuşanı erməniləşdirə bilməyiblər. Çünki Prezident İlham Əliyevin vurğuladığı kimi, bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. "Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!", - Prezident İlham Əliyev deyib.

Dövlət başçısı, birinci xanım və qızları Leyla xanım Şuşadakı Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərini də ziyarət ediblər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



## İlin uğurlu yekunları

# 11 qələbə müjdəsi



*Əvvəli 1-ci səh.*

Dövlət başçısının sentyabrın 27-də Azərbaycan xalqına ilk müraciəti informasiya və çağırış xarakterli bir sıra məqamlarla zəngin olmaqla yanaşı, həm də ölkədə hər bir vətəndaşın nə etməli olduğunu göstərmək baxımından çox əhəmiyyətli idi. Bunu Vətənin müdafiəsinə hər kəsin qalxmasına çağırış kimi də qəbul etmək olardı.

Prezident müraciətini bu fikirlərlə başa vurdu: "Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

### Cəbrayıl bizimdir!

Ölkəmizin rəhbərinin dediyi kimi də oldu. İlk gündən düşmənin ön müdafiə xətti yarıldı, qısa zamanda bir neçə kənd və strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi. Qələbəyə doğru inamla irəliləyən cəsur əsgərlərimiz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını və infrastrukturunu, canlı qüvvəsini darmadağın etdi, torpaqlarımızı sürətlə düşməndən təmizlədi. Qarabağ qarış-qarış, kənd-kənd işğaldan azad edildi. Cəbhədən gələn bütün sevindirici, müjdəli xəbərləri isə Azərbaycan xalqına birbaşa Ali Baş Komandan özü verdi.

Oktyabrın 4-də İlham Əliyev ikinci dəfə canlı yayımda xalqa müraciət edərək Cəbrayıl şəhəri və bu rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibətilə hər kəsi ürəkdən təbrik etdi: "Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!"

5 gün sonra Prezident xalqa növbəti dəfə müraciət edərək müzəffər Azərbaycan Ordusunun daha bir neçə yaşayış məntəqəsini işğaldan azad etdiyini çatdırdı. Hadrut qəsəbəsinin, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndlərinin işğaldan azad edilməsini tarixi qələbəmiz adlandırdı.

Dövlət başçısı diqqətə çatdırdı ki, hər gün cəbhədən xoş xəbərlər gəlir, əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, müasir döyüş prinsiplərinə əsaslanan əməliyyat planı tam icra edilir. Azərbaycan Ordusu həm maddi-texniki təchizat, həm də döyüş hazırlığı baxımından döyüş meydanında tam üstünlüyə sahibdir: "Bu gün bütün cəbhəboyu döyüşlər gedir. Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz..."

Prezident müraciətində Ermənistan tərəfinə danışıqlar, sülh yolu ilə torpağımızdan çıxmaq üçün şans verdiyini də bəyan etdi: "Onsuz da biz bu torpaqlara qayıdacağıq. Onsuz da biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bütün dünya bunu gördü, o cümlədən Ermənistan bunu gördü. Biz istəyirik ki, qan tökülməsin. Biz istəyirik ki, şəhidlər olmasın. Biz öz torpaqlarımızı istəyirik. Çıxın gedin bizim torpağımızdan, rədd olun bizim torpağımızdan! Gedin öz ölkənizdə yaşayın. Amma biz torpağımızı geri alacağıq. Ona görə bu tarixi şansı onlar qaçırmamalıdır".

### Füzuli və Zəngilan şəhərləri düşmən tapdağından azad edildi

17 oktyabrda Ali Baş Komandan böyük məmnunluq və sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını televiziya vasitəsilə xalqa çatdırdı. Prezident Füzuli rayonunun bir neçə kəndinin və Füzuli şəhərinin işğalçılardan azad edildiyini bildirdi: "Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

Cəmi 3 gün sonra Prezident yenidən televiziya vasitəsilə xalqa müraciət ünvanlayaraq Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırmaqla yanaşı, şanlı Azərbaycan Ordusunun Zəngilan rayonu ərazisinə də daxil olduğunu açıqladı. Zəngilan rayonunun 6 kəndinin və Zəngilan şəhərinin işğaldan azad edilməsi münasibətilə Azərbaycan xalqını təbrik etdi.

### Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz

26 oktyabrda Ali Baş Komandan növbəti xoş müjdəli müraciətində Qubadlı şəhərinin və rayonun bəzi kəndlərinin işğaldan azad olunduğunu fəxr hissi ilə bəyan etdi. Prezident vurğuladı ki, o kəndlərin hamısı dağıdılıb, lakin Azərbaycan xalqının da, dövlətinin də o yerləri bərpa etməyə gücü çatacaq: "Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Müraciətlərində Prezident Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını da xalqın diqqətinə çatdırırdı. Hər çıxış özünəməxsusluğu, düşmən tərəfə ciddi mesajları ilə yadda qalır, insanlar tərəfindən maraq və rəğbətlə qarşılanırdı. Hətta dövlət başçısının bəzi ifadələri ölkədə dillər əzbərinə çevrilirdi.

Təbii ki, bu günlər ərzində dövlət başçısı yalnız televiziya müraciətləri ilə kifayətlənmirdi. Qarabağ həqiqətlərini xarici media əməkdaşlarına müsahibələr verərək dünyaya bəyan edirdi. Demək olar ki, Ali Baş Komandan hər gün öz "Twitter" hesabından xoş xəbərləri çatdırır, işğaldan azad edilən kəndlərimizin adlarını açıqlayırdı. Xalqımız hər gün Prezidentin paylaşımlarını həyəcan və səbirsizliklə gözləyirdi. Şad xəbərlərin müjdəsi olan paylaşımlar bir neçə dəqiqə ərzində bütün ölkəyə yayılırdı. Xalq döyüş bölgəsindən olan ən düzgün xəbərləri birbaşa ölkənin birinci şəxsindən alırdı. Hər qələbə xəbəri əhali tərəfindən böyük xoşbəxtlik və coşquyla qarşılanırdı. Hər kəs müqəddəs üçrəngli bayrağımıza bürünərək küçələrə axışır, sevincini bir-birilə bölüşürdü.

### Əziz Şuşa, sən azadsan!

Prezidentin Vətən müharibəsi başlanan gündən xalqa ünvanladığı sayca yeddinci müraciət isə ölkədə sözün həqiqi mənasında qələbə və bayram əhvali-ruhiyyəsi yaratdı. Bu müraciət digərlərindən fərqli idi. Çünki Vətən yolunda, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən müqəddəs şəhidlərimizin uyuduğu məkandan - Şəhidlər xiyabanından ünvanlanırdı.

"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Dövlət başçısı bu müjdəni doğma xalqına Şəhidlər xiyabanından verməsinin təsadüfi olmadığını dedi. Şəhidlərimizin ruhu qarşısında ehtiramını bildirərək bəyan etdi ki, onların qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. Onların intiqamını döyüş meydanında aldıq.

Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin məzarını da ziyarət etdiyini, ruhu qarşısında baş əydiyini söyləyərək ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxt olduğunu vurğuladı.

"Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" deyərək İlham Əliyev müraciətini başa vurdu.

Və məhz həmin tarix - xalqımızın tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərinin işğaldan azad edildiyi gün - 8 Noyabr Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda Zəfər Günü kimi təsis edildi.

### Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

9 Noyabr Dövlət Bayrağı Günü də qələbə xəbərləri davam etdi. Prezident "Twitter" hesabından 72 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edilməsi ilə bağlı şad xəbəri xalqa verdi.

10 noyabr gecəsi isə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev efir vasitəsilə doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

Prezident çıxışında uzun illər davam edən işğala son qoyan bu bəyanata böyük fəxarət və sevinc hissi ilə imza atdığını vurğuladı. Qeyd etdi ki, üçtərəfli bəyanat işğal altında qalan Ağdam, Laçın, Kəlbəcər rayonlarının qan tökülmədən bizə qaytarılmasına imkan verəcək: "... Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

Bəli, 10 noyabr tarixi Qarabağ münaqişəsinə nöqtə qoyulduğu gün oldu. 30 illik münaqişə 44 gün ərzində Ali Baş Komandanın, Azərbaycan Ordusunun, Azərbaycan xalqının zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...

Prezident növbəti günlər də xalqa müraciət edərək zəfər müjdələrini verdi. 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, 1 dekabrda isə Laçın rayonlarının işğaldan azad olunması münasibətilə xalqa gözaydınlığı verərək təbrik etdi. Bildirdi ki, döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytardıq.

Dövlət başçısı son müraciətində lazımi ünvanlara mesaj verməyi də unutmadı: "Noyabrın 10-da imzalanmış bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda burada təhlükəsizlik tədbirlərinin görülməsi və bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Razılaşma icra edilir və icra edilməlidir".

Beləliklə, sentyabrın 27-dən dekabrın 1-nə qədər Ali Baş Komandan 11 zəfər müjdəli müraciəti ilə xalqı sevindirdi. Prezidentin xalqa hər müraciəti bitər-bitməz paytaxt əhli küçələrə çıxaraq şanlı qələbənin qürurunu bölüşdü. Paytaxt əhli meydanlara axışaraq, əllərində Azərbaycan bayraqları, şüarlar tutaraq sevindilər, mahnı oxudular, rəqs etdilər, şeir dedilər. Minlərlə insan müqəddəs and yerimiz olan Şəhidlər xiyabanını ziyarət edərək şəhidlərimiz qarşısında borcunu yerinə yetirdi.

Hazırda isə Azərbaycan üçün yeni dövr başlayır - quruculuq, inkişaf, azad edilmiş ərazilərimizin bərpası dövrü. Elə ölkə başçısının sonuncu müraciətində dediyi kimi, xalqımız Vətən savaşı günlərində olduğu kimi, bu dövrdə də həmrəyliyini əsirgəməyəcək: "...Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

**_Xəyalə MURADLI,_**
**_"Azərbaycan"_**

## Qarabağ dirçəliş yolundadır

# Ermənistanın dağıtdığı evləri Azərbaycan yenidən tikir

*Əvvəli 1-ci səh.*

Ancaq Ermənistana o rayonlardan çıxmaq üçün vaxt verildiyi müddət ərzində onlar oranı da dağıtmışlar, bütün dünyaya öz vəhşiliklərini göstərmişlər. Bütün dünyanın gözü qarşısında evləri yandırıb, meşələri kəsib, qırıb, yandırıb, vandalizm aktları törətmişlər. Bütün dünya gördü ki, biz kiminlə üz-üzə idik. Bu vəhşiliyin, bu qəddarlığın bəlkə də tarixdə analoqu yoxdur. Heç İkinci Dünya müharibəsində işğalçı qüvvələr bu qədər qəddarlıq törətməmişlər. Onlar hesab edirdilər ki, biz bu bölgələrə qayıtmayacağıq, amma biz qayıtmışıq və qayıdırıq".

Dağıdılmış bütün şəhərlərimizi, kəndlərimizi yenidən quracağıq. Qarabağı cənnətə çevirəcəyik. Bunun üçün hər imkanımız var. Eyni zamanda Prezidentimizin tapşırıqlarına əsasən, bərpa işləri aparılarkən hər şəhərin dağıdılmış bir hissəsi qalmalıdır ki, bunu heç kim heç vaxt unutmasın. İndidən müəyyən edilməlidir ki, şəhərsalma işləri zamanı şəhərlərin hansı hissəsi, hansı kvartalı dağıdılmış vəziyyətdə qalacaq. Bunlar erməni işğalçılarının vəhşiliklərinin açıq səma altında muzeyi olacaq. Bununla yanaşı, Vətən müharibəsinin gedişində Ermənistan ordusunun Gəncəyə raketlər ataraq dağıtdığı evlər şəhərin başqa yerlərində bərpa olunacaq. Həmin ərazilər isə xatirə komplekslərinə çevriləcək.

Erməni vandalları 30 ildir talançılıq etdikləri, insanları yurd-yuvasından didərgin saldıqları azmış kimi, Vətən müharibəsində də cinayətlərindən əl çəkmədilər. Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən erməni işğalçıları silahlı hərbi cinayət törədərək ölkəmizdə mülki əhalini, şəhər, rayon və kəndləri atəşə tutdular. Bu təcavüz nəticəsində dinc insanlara, dövlət əmlakına, infrastruktura, sahibkarlara çox ciddi zərər vuruldu. Zərərin qiymətləndirilməsi və gələcəkdə kompensasiya edilməsi istiqamətində Prezident İlham Əliyev 6 noyabr 2020-ci il tarixli sərəncam imzalayıb. Sərəncamla yaradılan Dövlət Komissiyası işini davam etdirir. Verilən tapşırıqların icrası ilə əlaqədar İqtisadiyyat, Maliyyə, Fövqəladə Hallar, Kənd Təsərrüfatı nazirliklərinin, Şəhərsalma və Arxitektura Komitəsinin, Respublika Prokurorluğunun, "ASAN xidmət" və yerli icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət 11 şəhər və rayonda 13 işçi qrupu fəaliyyət göstərir. İşçi qruplarına mərkəzi icra orqanlarının nümayəndələri - nazirlərin və komitə sədrlərinin müavinləri rəhbərlik edirlər. Ümumiyyətlə, qiymətləndirmə ilə əlaqədar işlərə 200-dən çox məsul şəxs cəlb olunmuşdur.

Ötən ilin yekunlarına həsr olunmuş müşavirədə bu barədə də ətraflı bəhs edilmişdir. Bildirilmişdir ki, zərər çəkmiş vətəndaşların özlərinin iştirakı ilə 10 min 300-dən artıq obyektə baxış keçirilmiş və qiymətləndirmə aparılmış, müvafiq aktlar tərtib edilmiş və təqdim olunmuşdur. Tərtər rayonunda dəymiş ziyanın ilkin proqnozdan dəfələrlə çox olduğu nəzərə alınaraq, orada işlər davam etdirilir.

Dağılmış və qəzalı vəziyyətə düşmüş, o cümlədən ziyan dəymiş əmlakın bərpa dəyəri əsasında, nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və digər daşınmaz əmlak orta bazar qiyməti prinsipinə uyğun olaraq qiymətləndirilmişdir. İndiyədək hesablanmış ziyan 63,6 milyon manat həcmində qiymətləndirilir. Vətəndaşların əmlakı ilə bərabər, dövlət əmlakına da ciddi ziyan dəymişdir. Belə ki, dövlət əmlakına - əsasən yol infrastrukturuna, elektrik, rabitə, qaz, su xətlərinə və digər infrastruktur obyektlərinə dəymiş ziyan toplam olaraq təqribən 27,4 milyon manat dəyərləndirilir. Ümumiyyətlə, aparılmış qiymətləndirmə 91 milyon manat təşkil edir. 264 ev, o cümlədən Gəncə şəhərində 10 çoxmənzilli bina dağıdılmış və qəzalı vəziyyətə düşmüşdür. Zərər çəkmiş fərdi yaşayış evlərinin sayı 9294-dür. 440 sahibkarlıq obyektinə, 227 nəqliyyat vasitəsinə, digər 18 obyektə, məktəblərə və sosial obyektlərə, 518 aqrar təsərrüfata ziyan dəymişdir.

Bu rəqəmlərin özü də cəbhədən xeyli aralıda yerləşən yaşayış məntəqələrinin sakinlərinə qarşı törədilən vəhşiliyin miqyasını göstərir. Odur ki, vətəndaşların evlərinin bərpası əsas vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. Məsələ qısa müddət ərzində öz həllini tapmalıdır.

Prezidentin sərəncamına əsasən, tamamilə dağıdılmış, zərər çəkmiş binalarda yaşayan insanların şəxsi əşyalarına dəymiş ziyanın dərhal ödənilməsi ilə əlaqədar 9 milyon 100 min manat vəsait ayrılıb. Qəzalı vəziyyətə düşmüş yaşayış evlərinə dəymiş ziyanla əlaqədar hər ailəyə 6 min, hər ailə üzvünə 1500 manat və ziyan dəymiş digər ailələrə 1000 manat ayrılması nəzərdə tutulub. Bu kontingent 6143 ailədən ibarətdir. Yaxın günlərdə onlara vəsaitlərin ödənilməsi başa çatdırılacaq. Müharibə zamanı zərər çəkmiş bütün ailələrə müvafiq yardımlar göstərilir.

Biz erməni vandallarının dinc əhaliyə qarşı törətdiyi vəhşiliyi beynəlxalq ictimaiyyətə də olduğu kimi çatdırırıq. Prezident İlham Əliyev bu barədə xarici KİV-ə çoxsaylı müsahibələrində ətraflı məlumat vermişdir. Prezidentimiz MDB Dövlət Başçıları Şurasının keçən il dekabrın 18-də videokonfrans formatında keçirilən iclasında demişdir: "Münaqişənin 44 günü ərzində Azərbaycanın 94 nəfər dinc vətəndaşı, o cümlədən 11 uşaq öldürüldü, 400-dən çox dinc sakin yaralandı, 5 mindən çox ev tamamilə dağıdıldı və ya ciddi zədə aldı. Erməni silahlı qüvvələri münaqişə zonasından uzaqda yerləşən şəhərlərə, o cümlədən Gəncə şəhərinə hücum etdilər, Qəbələ, Bakıdan təqribən 100 kilometr məsafədə yerləşən Siyəzən, Xızı şəhərlərinə ballistik raket zərbələri böyük tələfata səbəb oldu. Başqa sözlə desək, dinc əhalini məhv etməyə və beləliklə, günahsız insanları öldürməklə təşviş yaratmağa yönəlmiş hərəkətlər və ermənilərin döyüş meydanında məruz qaldığı itkiləri bir növ kompensasiya etmək cəhdləri göstərilirdi".

Dəymiş ziyana aid məlumatlar Xarici İşlər Nazirliyi vasitəsilə beynəlxalq təşkilatlara və xarici nümayəndələrə çatdırılır. Qiymətləndirilmələrin və görülən işlərin şəffaf olması üçün "ASAN xidmət" vasitəsilə vahid elektron baza da yaradılıb.

**_Flora SADIQLI,_**
**_"Azərbaycan"_**

# Azərbaycan mediası yeni inkişaf mərhələsinə qədəm qoyur

Yarandığı gündən mütərəqqi ideyaların carçısı kimi çıxış edən Azərbaycan mətbuatı hər zaman mütərəqqi ideyaların tərənnümçüsü olub. Xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini verən mətbuat maariflənmədə, milli düşüncəsinin formalaşmasında, mədəniyyətimizin, mənəvi dəyərlərimizin gələcəyə daşınmasında mühüm rol oynayıb, Azərbaycanı müstəqilliyə aparan yolda fəal iştirak edib. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda media demokratik cəmiyyətin tərkib hissəsi kimi inkişaf yolu keçib.






Xüsusən Heydər Əliyevin ölkəmizə rəhbərliyə başlaması ilə mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi medianın yüksəlişinə xidmət edən amillər oldu.

Mətbuat sahəsində yaradılmış ənənələri daha da möhkəmləndirən Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində isə kütləvi informasiya vasitələrinin fəaliyyətində dövrün çağırışlarından irəli gələn yeni keyfiyyət mərhələsi başladı. Bu dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçib, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib.

## KİV islahatlardan kənarda qalmamalı, müasir zamanla ayaqlaşmalıdır

Son illər Azərbaycan üçün xarakterik cəhətlərdən biri cəmiyyət həyatının bütün sahələrində yeni islahatların həyata keçirilməsidir. Çünki istənilən sahədə inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığın təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Respubilkamızda həyata keçirilən islahatlar məzmununa görə məqsədyönlü və konkret hədəfə doğru hesablanıb. Bu islahatlar məhdud sfera ilə məhdudlaşmayaraq kompleks xarakter daşıyır. Cəmiyyətin aynası olan KİV də bu islahatlardan kənarda qalmamalı, mütləq ümumi ahəngdarlığa uyğun olmalıdır.

Prezident İlham Əliyev tərəfindən yanvarın 12-də "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın imzalanması da məhz bundan irəli gəlir. Azərbaycan mediasının özünəməxsus inkişaf yolu keçdiyinin, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərdiyinin diqqətə çatdırıldığı sənəddə qeyd olunur ki, qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranıb.

Fərmana əsasən respublikamızda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb.

Bu məqamda bir məsələni xatırladaq ki, ötən illərə qədər ölkədə media siyasətinə kölgə salan hallara da rast gəlinirdi. Bəzi məmurların səlahiyyətlərindən sui istifadə edərək KİV üzərində nəzarətə çalışmaları, medianın imkanlarından şəxsi maraqları naminə yararlanmaları bu sahədə boşluqların yaranmasına, çatışmazlıqlara yol açır, bütövlükdə mətbuatın peşəkar fəaliyyətindən, sağlam ənənə və dəyərlərindən uzaqlaşmasına səbəb olurdu. Artıq bunlara son qoyulub və süni buxovlardan azad olan KİV həm də yeni inkişaf mərhələsinə qədəm qoyur.

## Medianın İnkişafı Agentliyi fəaliyyətini hansı istiqamətlərdə həyata keçirəcək?

"Fərmanın imzalanması Azərbaycanda cəmiyyətin hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə duyulan ehtiyacla əlaqədar olduğu şübhəsizdir".

Bunu Prezident İlham Əliyevin digər sərəncamı ilə Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru təyin edilən **Əhməd İsmayılov** bildirib. Onun sözlərinə görə, tətbiq olunacaq yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verəcək.

Əhməd İsmayılov qeyd edib ki, Medianın İnkişafı Agentliyi media subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, habelə kütləvi informasiya istifadəçilərinin media savadlılığının yüksəldilməsi və digər istiqamətlərdə tədbirlər həyata keçirəcək. Bununla yanaşı, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi MEDİA Agentliyinin əsas prioritetlərindəndir.

Eyni zamanda, media subyektlərinə müvafiq sahədə normativ hüquqi aktların şərhi və izahı ilə bağlı kömək göstərmək, bu sahədə dövlət dəstəyinin imkan və mexanizmləri barədə məlumat vermək, inkişaf strategiyasının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, medianın fəaliyyətinə mane olan problemlərin həllinə dair təklifləri dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək də Media Agentliyinin daim diqqətində saxlayacağı məsələlər olacaq.

Agentlik sadalanan çoxşaxəli fəaliyyət istiqamətləri ilə yanaşı, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasına dəstək göstərilməsi istiqamətində tədbirlərin görülməsini də nəzərdə tutur.

Əhməd İsmayılov bildirib ki, Agentliyin səlahiyyət dairəsinə müvafiq olaraq istər çap mediası, istər onlayn, istərsə də audiovizual media sahəsində daha əhatəli, müasir dövrün çağırışlarına cavab verən, məzmun və forma baxımından yenilənmiş, daha uzunmüddətli hədəflərin əldə olunmasına yönələn layihələrin işlənib hazırlanması və həyata keçirilməsi daxildir. Media sahəsində fəaliyyət göstərən subyektlərə, onların redaksiyalarına və jurnalistlərə dair məlumatların sistemləşdirilməsinə, nəticədə yerli media məkanının ümumi xəritəsinin və mənzərəsinin formalaşdırılmasına şərait yaradılması məqsədilə müvafiq informasiya bazasının yaradılması qarşıda duran vəzifələr sırasındadır. "Bu yolla keyfiyyətli xəbər istehsalının təmin edilməsinə, bu sahədə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə, həmçinin kütləvi informasiyanın əldə olunması, ötürülməsi, istehsalı və yayımı fəaliyyətində inkişafa nail olunacaq" deyə Əhməd İsmayılov bildirib.

## KİV mənsubları islahatların dərinləşdirilməsini rəğbətlə qarşılayır

Prezident İlham Əliyevin mətbuatın müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq bu sahənin inkişafı istiqamətində islahatları təkmilləşdirməsi, Azərbaycan KİV-inin dünya informasiya məkanına inteqrasiyasını daha da sürətləndirmək məqsədilə davamlı addımlar atması media ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Bu barədə danışan Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru **Vüqar Rəhimzadə** bildirib ki, Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuatda da zamanın və dövrün tələblərinə uyğun təkmilləşmə uğurla həyata keçirilir. Onun sözlərinə görə, artıq mübaliğəsiz demək olar ki, ölkəmizdə dünya standartlarına uyğun media, elektron və yazılı KİV formalaşıb: "Statistikaya müraciət etsək, görərik ki, bu gün Azərbaycanda 40-dan artıq gündəlik, 200-dən çox həftəlik və aylıq qəzetlər cəmiyyətin informasiya tələbatının ödənilməsinə öz dəstəyini göstərir. Ölkə əhalisinin 80 faizindən çoxu fəal internet istifadəçisidir. Sosial mediadan istifadə edənlərin sayı 2 milyondan artıqdır. Bu statistik rəqəmlər Azərbaycanda azad mətbuatın inkişafı üçün bütün imkanların mövcud olduğunun təsdiqidir".

Vüqar Rəhimzadə bildirib ki, Medianın İnkişafı Agentliyinin yaradılması bu sahədə qarşıdakı dövr üçün nəzərdə tutulan hədəflərin gerçəkləşməsində stimulverici amil olacaq. Birmənalı qeyd etmək olar ki, bu addım Azərbaycan mətbuatının inkişafında yeni mərhələnin başlanmasıdır. "Qürur hissi ilə qeyd etmək lazımdır ki, mətbuatın inkişafına yönələn hər bir addım, imzalanan fərman və sərəncamlar çağdaş Azərbaycan mətbuatının "Əkinçi"dən başlanan yolunun uğurlu davamına xidmət edir, "dördüncü hakimiyyət" kimi dəyərləndirilən mediaya Azərbaycan dövlətinin və möhtərəm Prezidentin yüksək münasibətini, diqqət və qayğısını özündə ehtiva edir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda dövlət-mətbuat münasibətləri bundan sonra da yüksək səviyyədə olacaq, media nümayəndələri üzərlərinə düşən missiyanı müasir texnologiyaların yaratdığı imkanlardan maksimum istifadə etməklə uğurla yerinə yetirəcəklər. Sərəncamda əksini tapan müddəalar sırasında "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin iki ay müddətində hazırlanıb ölkə Prezidentinə təqdim edilməsi də xüsusi yer tutur. İnamla qeyd etmək olar ki, həyatımızın bu sahəsində müəyyənləşdirilən kompleks tədbirlər qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaqda açar rolunu oynayacaq", - deyə Vüqar Rəhimzadə bildirib.

## MEDİA Agentliyinin yaradılması zamanında atılan addımdır

"Şərq" qəzetinin baş redaktoru **Akif Aşırlı** mətbuata açıqlamasında Medianın İnkişafı Agentliyinin yaradılmasının əhəmiyyəti haqqında danışaraq bildirib ki, son dönəmdə bu sahədə ciddi problemlərin olması ilə bağlı müxtəlif səviyyələrdə müzakirələr aparılırdı: "Həqiqətən də ciddi tənqidi əsaslar var idi. İnam var ki, KİVDF-nin əsasında yaradılan Medianın İnkişafı Agentliyi ümumi media sferasında problemlərin daha ciddi və geniş həllinə gətirib çıxaran addımlar atacaq. Çünki yeni yaradılan bu qurumun Nizamnaməsi, qarşıya qoyulan vəzifələr daha geniş media sferasını əhatə edir. Əvvəllər KİVDF klassik media ənənələrinin yaşadılmasına daha çox üstünlük verirdisə, Medianın İnkişafı Agentliyi elektron medianın, yəni yeni medianın inkişafında bilavasitə iştirak edə biləcək mühüm qurum olacaq. Çünki burada artıq bütün media sferaları əhatə olunur. Həm çap, həm elektron, həm də ki, yeni fərdi medianın gətirdiyi elementlərlə bağlı digər jurnalistika anlayışlarının, jurnalist fərdlərinin daha geniş çevrədə fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması işi öz əksini tapır".

Akif Aşırlının sözlərinə görə, Medianın İnkişafı Agentliyinin yaradılması zamanında atılmış addımdır: "Biz bu məsələləri gündəmə gətirirdik. Agentliyin əsas prinsiplərindən və görəcəyi işlərdən biri media qanunvericiliyinin dəyişdirilməsidir. "Kütləvi informasiya vasitələri haqqında" qanuna bir neçə dəfə dəyişiklik olunub. Bununla belə KİV haqqında əlimizdə yekdil qanun yoxdur. Qanunların hər dəfə dəyişikliyə məruz qalmasının özü də bir problem yaradır. Yeni medianın hüquqi statusunun müəyyənləşməsində müəyyən problemlər var. Ciddi dəyişikliklərə ehtiyac duyulur. Çünki yeni media özü ilə yeni anlayışlar gətirir. Yeni yanaşmalar ortaya qoyulmalıdır və bu da qanunvericilikdə öz əksini tapmalıdır ki, medianın hüquqi statusu nədən ibarətdir".

## Agentliyin Nizamnaməsi mətbuatın inkişafı üçün yol xəritəsidir

"Editor.az" portalının baş redaktoru **Fərid Şahbazlı** Prezident İlham Əliyevin fərmanı ilə Medianın İnkişafı Agentliyinin təsis olunmasını Azərbaycan mətbuatının inkişafında yeni mərhələ sayır: "KİV-in inkişafı dövlət başçısının siyasi iradəsidir və biz bunu İlham Əliyevin fəaliyyətində daim müşahidə etmişik. Belə ki, bugünə qədər medianın inkişafı istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Jurnalistlərin mənzil-sosial şəraitinin yaxşılaşdırılması istiqamətində iki binanın inşası, daha bir binanın tikilməsi, çap mediasının dövlət tərəfindən maliyyələşməsi və fərdi jurnalist müsabiqələrinin təşkili, cənab Prezident İlham Əliyevin dəfələrlə öz çıxışlarında jurnalistləri özünün köməkçisi və dostu adlandırması bunun əyani təzahürüdür.

Lakin cənab Prezidentin də söylədiyi kimi, bəzi məmurlar mətbuatı şəxsi intriqa və mübarizə meydanına çeviriblər. Təəssüf ki, bəzi hallarda mediadan alət kimi istifadə olunub. Bu mənada yeni Agentliyin fəaliyyətə başlaması günün tələbi və mətbuatın inkişafı istiqamətində çox mühüm addımdır. Eyni zamanda yeni mərhələnin başlanğıcıdır".

Agentliyin fəaliyyət istiqamətləri barədə qənaətlərini bölüşən Fərid Şahbazlı qeyd edib ki, əsas diqqət Azərbaycan mətbuatını müasir səviyyəyə çatdırmağa və dövrün tələbləri ilə uyğunlaşdırmağa yönəlməlidir: "Bilirsiniz ki, digər sahələrdə olduğu kimi, medianın da fəaliyyətində böyük dəyişikliklər baş verib və müasir şərait bu sahədə həm qanunvericilik bazasının təkmilləşdirilməsini, həm də yeni yanaşma tərzini qaçılmaz edir. Fərmandan da göründüyü kimi, Agentlik media subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsini, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasını, onların sosial müdafiəsinin gücləndirilməsini, media sahəsində mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkilini, habelə kütləvi informasiya istifadəçilərinin media savadlılığının yüksəldilməsini və digər istiqamətlərdə tədbirləri özündə ehtiva edir. Yəni Agentliyin Nizamnaməsi və orada əks olunan müddəalar mətbuatın inkişafı üçün yol xəritəsi rolunda çıxış edir. Hesab edirəm ki, internet medianın gücləndirilməsi, özünütənzimləmə mexanizmlərinin yaradılması, beynəlxalq media təsisatları ilə əlaqələrin qurulması və birgə fəaliyyətin təşkili, sosial media ilə bağlı tədbirlərin həyata keçirilməsi, jurnalistlərin bilik və bacarıqlarının artırılması mühüm istiqamətlər olmalıdır. Eyni zamanda cəmiyyətin bütün sahələr üzrə maarifləndirilməsi və obyektiv informasiya alması istiqamətində medianın rolu artırılmalıdır. Müasir dəyərlərin günümüzə ayaq açdığı mövcud şəraitdə beynəlxalq auditoriyaya xitab etmədən ciddi uğurlardan danışmaq mümkünsüzdür. Nəzərə almaq lazımdır ki, Azərbaycanın dünya miqyasında artan rolu, tarixi Qarabağ Zəfəri və regionun əsas dövlətinə çevrilməsi fonunda bəzi qüvvələr ölkəmizə qarşı təxribatçı senarilərini işə salıblar. Bu xüsusda Azərbaycan həqiqətlərinin dünya miqyasında təbliği mətbuatın əsas fəaliyyət istiqamətlərindən biri olmalıdır. Başqa sözlə ifadə etək, beynəlxalq əməkdaşlığa xüsusi önəm verilməsi prioritet istiqamətlərdən birinə çevrilməlidir".

Qloballaşan dünya sürətlə inkişaf edir ki, bu da cəmiyyət həyatının bütün sahələrində, o cümlədən medianın qarşısında yeni vəzifələr müəyyənləşdirir. KİV-in inkişafına dəstəyini əsirgəməyən Azərbaycan dövlətinin məqsədi həm də KİV-in öz fəaliyyətində yeni trendlərlə, müasir çağırışlarla ayaqlaşmasıdır. Bu baxımdan bu sahədə islahatların dərinləşdirilməsi həm respublikamızda cəmiyyət həyatının digər sferalarında həyata keçirilən islahatları tamamlayacaq, həm də bütövlükdə medianın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını təmin edəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Bakı qara hazırdırmı?

## Bu il problemin yaşanmaması üçün paytaxt strukturları və təsərrüfatı tam səfərbər olunub

Qarlı-şaxtalı günlərdə paytaxt sakinlərini daha çox narahat edən məsələ nəqliyyat sisteminin hərəkətində yaranan problemlər olur. Xatırladaq ki, əvvəllər Bakıya yağan qar avtomobillərin hərəkətində ciddi məhdudiyyətlər yaradırdı. Qarın təmizlənmə prosesində yaşanan ləngimələr yolların buz bağlamasına səbəb olurdu.

İndi Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatı şəhər təsərrüfatının balansında müasir tipli qarkürüyücü, qartəmizləyici və duzsəpən avtomobillər mövcuddur. Yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunacaq texnikalar saz vəziyyətdədir. Buzun əriməsi üçün yollara səpilən texniki duz ehtiyatları kifayət qədərdir.

Dünən qışa hazırlıqla bağlı həmin texnikaların hansı vəziyyətdə olması ilə tanışlıq üçün Bakı Şəhər İcra Hakimiyyətinin bu prosesi həyata keçirən Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsinə yollandıq. İlk mənzərədən məlum oldu ki, idarə qış mövsümünə artıq tam hazır vəziyyətdədir.

İdarənin rəisi Mübariz Hüseynov dedi ki, sentyabr-oktyabr aylarından etibarən qışa hazırlıq işlərinə başlanılıb. İdarənin balansında olan qış texnikası və nəqliyyat vasitələri bokslardan bayıra çıxarılaraq start vəziyyətinə gətirilib. İdarənin anbarında hazırda 5 min tondan çox texniki duz var. Mövcud olan duz ehtiyatları yollarda yarana biləcək buz probleminin aradan qaldırılmasına imkan verəcək: "Mövsümlə bağlı idarədə 24 saatlıq iş rejimi yaradılıb. Yanvarın 20-21-də qar yağması və yolların buz bağlaması gözlənildiyindən bütün işlər tam hazır vəziyyətə gətirilib. Havanın qarlı keçəcəyi təqdirdə gecə saatlarından lazımi tədbirlər görülməyə başlanacaq ki, səhərisi gün paytaxt sakinləri üçün heç bir problemlər yaranmasın".

M.Hüseynov vurğuladı ki, idarədə hazırda 50-yə yaxın qış texnikası mövcuddur. Bunların sırasında Almaniya və Rusiyadan alınan XCMG markalı kürüyücü avtoqreyder, "Hitachi" markalı yükləyici ekskavator, kürüyücü-yükləyici CAT 428F markalı avtotraktor, JAK markalı vakuum tipli avtomaşın var. Bundan başqa, MAN 18350 markalı qarkürüyücü avtomaşınlar, KamAZ 53229 markalı qum-duz səpən və kürüyücü avtomaşınlar, MAZ MDK 5337 markalı qum-duz səpən və kürüyücü avtomaşınlar tam hazır vəziyyətə gətirilib və sürücülərlə təmin edilib.




İdarədə çalışan əməkdaşların rahatlığı və istirahəti üçün lazımi şərait yaradılıb, otaqlar istiliklə təchiz olunub. İşlərin vaxtlı-vaxtında və keyfiyyətli aparılması məqsədilə növbətçilik tərtib edilib. Bütün işçilərə məsuliyyətləri ilə bağlı təlimlər keçirilib və Bakı şəhərinin rayonları üzrə təhkimçilər təyin edilib. Bu şəxslər mütəmadi olaraq yerlərdəki məlumatları idarəyə çatdırırlar. Gündəlik növbə ilə işləyən işçilərin hətta isti yeməklərlə təmin edilməsi də həyata keçirilir.



Yolların duzlama prosesinə gəlincə isə Mübariz Hüseynov bildirdi ki, işlər hər gün idarəyə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən daxil olan telefonoqrammalara əsasən qurulur. Gecə saatlarında texniki duzla yüklənmiş avtomaşınlar, qarkürüyücü maşınlar şəhərin bütün istiqamətlərində hazırlıq vəziyyətinə gətiriliblər. Maşınlar əsasən mərkəzi küçələrdə, körpülər və tunellərin yaxınlığında dayanırlar. Körpülərin altı boş qaldığı üçün daha tez donma, buzlama ehtimalı olur. Belə vəziyyətlərdə Bakı şəhəri Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları da idarə işçilərinə yardımçı olurlar.

Mübariz Hüseynov onu da vurğuladı ki, şaxtalı havada yağan qarı və buz örtüyünü təmizləmək üçün əsasən texniki duzdan istifadə edilir: "Çünki texniki duz qar və buz əriyərkən suya qarışıb yox olur. Qum isə bir qədər problem yaradır. Ona görə də əsasən texniki duzdan istifadəyə üstünlük verilir: "Bakı şəhərində hələ heç bir yola duzdan zərər dəyməyib. Avtomobillər də yuyularaq duzdan təmizlənir. Əgər duzun avtomobillərə ziyanı olsaydı, biz hər il yeni duz səpən avtomobil almaq məcburiyyətində qalardıq. Lakin texnikalarımız saz vəziyyətdə qalır".

Beləliklə, dünən apardığımız müşahidələr onu deməyə əsas verir ki, qarlı, şaxtalı günlərdə paytaxtımızın yollarında ciddi problemlərlə qarşılaşmayacağıq.






**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

# Aida Mahmudovanın ABŞ-da açılmış sərgisi beynəlxalq media tərəfindən geniş işıqlandırılıb

Tanınmış azərbaycanlı rəssam Aida Mahmudovanın Amerika Birləşmiş Ştatlarında açılmış ikinci fərdi sərgisi bir neçə beynəlxalq media tərəfindən geniş işıqlandırılıb.




AZƏRTAC xəbər verir ki, “Aida Mahmudova: PASTPRESENTFUTURE” sərgisinə həsr edilmiş yazılarda rəssamın yeni əsərlərində yaradıcılıq prosesinin sırf emosional və instinktiv tərəfi önə çəkilir, əsərlərin keçmişi, bu günü və gələcəyi vəhdət halında birləşdirdiyi qeyd edilir.

Sərgiyə həsr edilmiş yazılarla https://theartgorgeous.com/female-led-exhibitions-we-cannot-wait-to-see-in-2021/, https://artdaily.com/news/131994/Sapar-ContemporaryGallery---Incubator-opens-an-exhibition-of-works-by-Aida-Mahmudova#.YAbH0pMzaqC) linkləri vasitəsi ilə ətraflı məlumat əldə etmək olar.

Qeyd edək ki, fevralın 16-dək davam edəcək “Aida Mahmudova: PASTPRESENTFUTURE” sərgisi “Sapar ContemporaryGallery+Incubator”un təşkilatçılığı ilə reallaşıb.

“Sapar Contemporary-Gallery+Incubator” varlığın fraqmentar təbiətini zamanla və landşaftda təhrif olunmuş xatirələr vasitəsilə tədqiq edən yeni “Aida Mahmudova: PASTPRESENTFUTURE” seriyasını təqdim edib. Qalereyanın Mərkəzi Asiya və Qafqazda fəaliyyət göstərən nüfuzlu qadın rəssamlara dəstək istiqamətində fasiləsiz səyləri çərçivəsində təşkil edilən “PASTPRESENTFUTURE” rəssamın Amerika Birləşmiş Ştatlarında ikinci fərdi sərgisidir.

Ot və quru bitkilərdən istifadə edilərək və rəssamın impressionist toxunuşları nəticəsində ərsəyə gələn “Mənşə” (2020) kimi əsərlər rəssamın vətəni Azərbaycanda rast gəlinən landşaftın canlandırıcı detallarını üzə çıxarır. Yer kürəsinin səthi ilə bağlı reallıqlara baş vuran Aida Mahmudovanın təsvir etdiyi bu proses təbiəti xatirələri oyadan nostalji hissi ilə doldurur. Təbəqələrin yaradılması və ya onların birbirindən ayrılması, habelə quru bitkilər, keramika, mis də daxil olmaqla müxtəlif materialların qarışdırılması prosesi rəssam üçün fiziki olaraq böyümə və emosional şəfatapma məqsədilə edilən məşğələyə çevrilir.

Azərbaycanın paytaxtı Bakıda yaşayıb fəaliyyət göstərən Aida Mahmudovanın rəsm əsərləri onun seçdiyi materialların fiziki təbiəti və üstünlük verdiyi dünyəvi palitrası ilə ahəngdar şəkildə uzlaşır. Onun olduqca intuitiv xarakter daşıyan axtarışları xarici sədlərdən yan keçən sevgi, itki, yaddaş və istək kimi universal insan hisslərinin bütün spektri üzrə inkişaf etməyə davam edir. Rəssamın sözlərinə görə, “cəmiyyətin bir hissəsi olaraq, biz varlığın təbiətini, başqaları ilə qarşılıqlı münasibətlərimizi müəyyən dərəcədə məhdudlaşdırırıq və bununla da ibtidai ünsiyyət kanallarını itiririk. Mənim üçün incəsənətin heç bir sərhədi yoxdur - o, ünsiyyətin istənilən forması üçün açıqdır, yaradıcılıq prosesi isə insan tərəfindən yaradılmış və buna görə də olduqca kövrək olan fundamental prinsipləri bu və ya digər dərəcədə məhv edir”.

## REQUEST FOR EXPRESSIONS OF INTEREST (CONSULTING SERVICES - FIRMS SELECTION)

The Republic of Azerbaijan
Employment Support Project
Loan No.: 9044-AZ
Assignment Title: Preparation of communication and outreach strategy and organization of communication campaign
Reference No. (as per Procurement Plan): AZ-MLSPP-204708-CS-QCBS

The Ministry of Labor and Social Protection of Population has received financing from the World Bank toward the cost of the Employment Support Project, and intends to apply part of the proceeds for consulting services.

The consulting services (“the Services”) include Preparation of communication and outreach strategy and organization of communication campaign, with 48 month of implementation period (expected to start about April 2021).

The detailed Terms of Reference (TOR) for the assignment can be found at the following website: **https://drive.google.com/file/d/1qUuIPCOgzBfS7_7ZJocKqWOUF9auCrTI/view?usp=sharing**

The Ministry of Labor and Social Protection of Population / Employment Support Project now invites eligible consulting firms (“Consultants”) to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services. The shortlisting criteria are: Experience in designing and implementation of communication / outreach strategies and campaigns (0-30 points); Core business, technical and managerial capability of the firm (0-25 points); Experience in implementation of social projects (0-25 points);

Regional experience or at least experience in similar regions and circumstances (0-20 points). Key Experts will not be evaluated at the shortlisting stage.

The attention of interested Consultants is drawn to Section III, paragraphs, 3.14, 3.16, and 3.17 of the World Bank's “Procurement Regulations for IPF Borrowers” July 2016, revised November 2017 and August 2018 (“Procurement Regulations”), setting forth the World Bank's policy on conflict of interest.

Consultants may associate with other firms to enhance their qualifications, but should indicate clearly whether the association is in the form of a joint venture and/or a sub-consultancy. In the case of a joint venture, all the partners in the joint venture shall be jointly and severally liable for the entire contract, if selected.

A Consultant will be selected in accordance with the Consultants Quality and Cost-based Selection method set out in the Procurement Regulations.

Further information can be obtained at the address below during office hours (Monday to Friday 09:00 to 17:00 hours).

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by February 04, 2021.

Ministry of Labor and Social Protection of Population / Employment Support Project
Attn: Mr.Huseyngulu Ismayilov,
Procurement Specialist
27, Nazim Hikmet str., Rich Plaza, 2nd floor
AZ1100, Baku, Azerbaijan E-mail: **huseyngulu.ismayilov@esp.az**

## Maraq məktublarının qəbul edilməsinə dair elan (məsləhət xidmətləri)

Azərbaycan Respublikası
Məşğulluğa Dəstək Layihəsi
Layihənin İD №: P171250
Tapşırığın adı: Kommunikasiya və Məlumatlandırma Strategiyasının hazırlanması və kommunikasiya kampaniyasının təşkili
İstinad Nömrəsi (Satınalma Planına uyğun olaraq): AZ-MLSPP-204708-CS-QCBS

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri (“Xidmətlər”) Xüsusi təlim modullarının hazırlanması və yenilənməsi və müvafiq təlimlərin təşkili, ÖMP-nın həyata keçirilməsi, mentorluq xidmətlərinin göstərilməsi üzrə, 48 ay ərzində icra olunmaqdan ibarətdir (2021 aprel ayında başlayacağı gözlənilir).

Ətraflı Texniki Tapşırıq ilə aşağıdakı linkdən tanış olmaq olar: **https://drive.google.com/file/d/1qUuIPCOgzBfS7_7ZJocKqWOUF9auCrTI/view?usp=sharing**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, uyğun məsləhətçi şirkətləri qeyd olunan xidmətlərin təmin edilməsində maraqlı olduqlarını bildirməyə dəvət edir. Xidmətlərin həyata keçirilməsində maraqlı olan məsləhətçi şirkətlər müvafiq təcrübə və ixtisaslarını göstərən məlumatları təqdim etməlidirlər. Qısa siyahıya düşmək üçün meyarlar: Kommunikasiya / məlumatlandırma strategiyaları və kampaniyalarının layihələndirməsi və tətbiqi üzrə təcrübə (0-30 bal); Məsləhətçi şirkətin əsas işi, texniki və idarəetmə qabiliyyəti (0-25 bal); Sosial layihələrin həyata keçirilməsində təcrübə (0-25 bal); Regional təcrübə və ya ən azından oxşar bölgələrdə və şəraitdə təcrübə (0-20 bal). Qısa siyahı mərhələsində əsas işçi heyəti qiymətləndirilməyəcək.

Maraqlı olan Məsləhətçilərin diqqəti Dünya Bankının iyul 2016, 2017-ci il noyabr və 2018-ci il avqust aylarında yenidən baxılmış (“Satınalma Qaydaları”), iyul 2016-cı il tarixli “İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları” sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçi şirkətlər öz ixtisasını artırmaq üçün əməkdaşlıq qura bilərlər, lakin dərnəyin ortaq müəssisə və / və ya sub-konsultasiya şəklində olub olmadığını aydın şəkildə göstərməlidirlər. Birgə müəssisə olduqda, ortaq müəssisədəki bütün tərəfdaşlar seçildiyi təqdirdə müqavilə üzrə ortaq və ayrı-ayrılıqda öhdəlik daşıyırlar.

Məsləhətçilərin seçim prosesi Satınalma Qaydaları ilə müəyyən edilmiş Məsləhətçilərin keyfiyyət və qiymətə əsaslanan seçim metoduna uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumatı iş saatı ərzində (Bazar ertəsi-cümə günləri saat 09:00-dan 18:00-a kimi) aşağıda göstərilən ünvandan əldə etmək olar.

Maraq məktubları 04 fevral 2021-ci il tarixədək aşağıdakı ünvanlara (şəxsən, məktub şəklində, faks və ya elektron poçt vasitəsilə) göndərilməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
Kimə: Hüseynqulu İsmayılov, satınalma üzrə mütəxəssis
Nazim Hikmət, 27, Rich Plaza, 2-ci mərtəbə
AZ1100, Bakı, Azərbaycan E-mail: **huseyngulu.ismayilov@esp.az**

# Azərbaycanda koronavirus infeksiyasından 949 nəfər sağalıb, 305 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 949 nəfər müalicə olunaraq sağalıb, 305 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 10 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 227 min 696 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 216 min 720 nəfər müalicə olunaraq sağalıb, 3032 nəfər vəfat edib. Aktiv xəstə sayı 7944 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 328 min 507 test aparılıb. Dünənki test sayı isə 6915-dir.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən Agentliyin inzibati binası üçün jalüzlərin satın alınması məqsədilə elan edilən açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 13 yanvar 2021-ci il qərarına əsasən **“Lotus Co” QSC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti qaynaq aparatı və qaynaq aparatlarının tənzimləyicisi üçün reostatların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 yanvar 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

1. Nazirliyin aparatının inzibati binasının fasad örtüyünün yuyulması.
2. Nazirliyin aparatının inzibati binasında sanitariya-epidemioloji işlərinin aparılması xidməti.

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 25 yanvar 2021-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 8 saylı Ərazi Məşğulluq Mərkəzi filialı üçün ofis sahəsinin icarəsinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50.00 (əlli) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir;* ***01.12.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir;* ***01.12.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Dövlət Statistika Komitəsindən alınmalıdır. (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.02.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18.02.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.02.2021-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ *açıq tender elan edir*

Çap və mətbəə məhsullarının satın alınması ilə əlaqədar açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).***
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); - 19.01.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Statistika Komitəsindən alınmalıdır (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 10.02.2021-ci il saat 14:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 18.02.2021-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 19.02.2021-ci il saat 14:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti




# Qaxın İlisu kəndinə 15 santimetrdən çox qar yağıb

Azərbaycanın şimal-qərb bölgəsi rayonlarında qeyri-sabit hava şəraiti hökm sürür. Havanın temperaturu xeyli aşağı düşüb. Yanvarın 19-u gecə saatlarından başlayaraq bölgənin dağlıq və dağətəyi ərazilərinə qar yağıb.

AZƏRTAC xəbər verir ki, Qax rayonunun dağlıq ərazisində yerləşən İlisu kəndində hazırda qar örtüyünün hündürlüyü 15-20 santimetr təşkil edir. Yağan qar sakinlər üçün heç bir problem yaratmayıb. Kəndin elektrik enerjisi və təbii qazla təchizatı normal qaydada davam edir.

Avtomobil Yolları Dövlət Agentliyinin 13 nömrəli "Yol İstismar" MMC tərəfindən görülmüş tədbirlər nəticəsində Qax-İlisu avtomobil yolunda, eləcə də kənd daxilində nəqliyyatın hərəkətində heç bir çətinlik yaranmayıb. Yollara duz və qum qarışığı səpilib.



## "Bakı Metropoliteni" QSC kotirovka sorğusu elan edir

"Bakı Metropoliteni" QSC-nin müxtəlif stansiyalarında stansiya adları üçün hərflərin alınıb quraşdırılması işlərinin satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.01.2021-ci il saat 16:00-dək qəbul olunur.

Təkliflər 25.01.2021-ci il saat 14:00-da açılacaqdır.

Ünvan: Bakı ş., M.Rəfili, 16, tel: (012) 490-01-01.
Əlaqələndirici şəxs: Rauf Yusifov.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 30 oktyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmaları-nın vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) İnformasiya texnologiyaları sistemlərinə (saxlanc avadanlıqları, müraciətlərin balanslaşdırılma sistemi, professional iclas avadanlıqları, İP telefoniya, virtual platforma, elektron məktub, İT təhlükəsizlik sistemləri və s.) texniki xidmətin satın alınması üzrə "R.İ.S.K. Elmi İstehsalat Şirkəti" QSC qalib olmuşdur.

Qalib şirkətlə 19 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 29 oktyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Smart kartların satın alınması üzrə "R.İ.S.K. Elmi İstehsalat Şirkəti" QSC qalib olmuşdur.

Qalib şirkətlə 15 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 29 oktyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Perimetrə giriş-çıxışı idarəetmə informasiya sistemlərinə texniki xidmətin və Smartnet lisenziyalarının 1 (bir) il müddətinə uzadılmasının satın alınması üzrə "R.İ.S.K. Elmi İstehsalat Şirkəti" QSC qalib olmuşdur.

Qalib şirkətlə 18 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 29 yanvar 2021-ci il saat 14:00-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün abraziv qumun satın alınması üzrə açıq tenderin vaxtı 12 fevral 2021-ci il saat 12:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 fevral 2021-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə 11 fevral 2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

*Tender komissiyası*

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: **www.azerbaijan-news.az**

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 4 LOT üzrə keçirilir:

**LOT 1- IP TV multimedia xidməti üçün set-top-box qurğularının satın alınması.**
**LOT 2 - Yük avtomobillərinin satın alınması.**
**LOT 3 - P-274 M 2x0.5 naqilinin satın alınması.**
**LOT 4 - Dəftərxana və ofis ləvazimatlarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 600 (altı yüz ) manat (ƏDV daxil)**
**LOT 2 - 200 (iki yüz ) manat (ƏDV daxil)**
**LOT 3 - 300 (üç yüz ) manat (ƏDV daxil)**
**LOT 4 - 200 (iki yüz ) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **11 fevral 2021-ci il saat 16:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*
11. *İddiaçının hansı sahibkarlıq subyektinə aid olması ilə bağlı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən və ya vergi orqanı tərəfindən arayışın təqdim edilməsi mütləqdir.*

İddiaçılar tender təklifini və bank təminatını **21 fevral 2021-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **22 fevral 2021-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

*Tender komissiyası*

## BİLDİRİŞ

Şüvəlan məişət tullantılarının yükləmə-boşaltma məntəqəsinin layihə smeta sənədlərinin hazırlanması işlərinin satın alınması məqsədilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş açıq tenderdə **"CREAT COMPANY" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla 292.640 manat məbləğində 13 yanvar 2021-ci il tarixli müqavilə imzalanmışdır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi UNEC-in Strateji inkişaf üzrə prorektoru, professor

**MİRDAMƏD SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

UNEC-in Həmkarlar İttifaqı Komitəsinin sədri Pərviz Zeynalov universitetin Strateji inkişaf üzrə prorektoru, iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5055
Sifariş 136
Qiyməti 40 qəpik